www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 21 iyul 2015-ci il Çərşənbə axşamı № 156 (6184) Qiymәti 40 qəpik

**Xəbər**

## Türkiyədə dəhşətli terror - 30 ölü, 100-dən çox yaralı var - İŞİD şübhəsi...

yazısı səh.12-də

**Gündəm**

### Azərbaycanın müharibə hazırlığı Kremli hərəkətə gətirdi



Rusiyanın "sülhməramlılar"ını bölgəyə yerləşdirmək planı ciddi narahatlıq doğurur; həmsədrlərin bölgəyə növbəti səfəri başladı...

yazısı səh.11-də

### Beynəlxalq Banka maliyyə nazirinin adamı rəhbər gətirilir

yazısı səh.7-də

### Hamar yolu şumlayanlar - Haramıdan reportaj

yazısı səh.10-da

### Ermənistan İran-Qərb anlaşmasından qazanmaq istəyir

yazısı səh.3-də

### Əli Kərimlinin şöbə müdirini vəzifəsindən azad etməsinin sirri

yazısı səh.4-də

### Hüquq müdafiəçisinin Leyla Yunus haqda dedikləri qalmaqal yaratdı

yazısı səh.3-də

### Yeni ipoteka kreditləşməsi mənzil bazarında ciddi canlanma yaradacaq

yazısı səh.15-də

### Ekspert dövlət sirri ilə bağlı yeni tələblərdən danışdı

yazısı səh.7-də

### Bu gün iki hüquq müdafiəçisinin məhkəməsidir

yazısı səh.3-də

### Gədəbəydə "qoyun töycüsü" yığılır - 1 qoyun 1 manat

yazısı səh.12-də

### İran məsələsində Rusiya niyə ABŞ-a dəstək verdi

yazısı səh.13-də

### Şamaxıda qarşısına it çıxan avtomobil qəza törətdi; sərnişin öldü

yazısı səh.14-də

## ABŞ daxili siyasətlə bağlı tələblərindən geri çəkilir

# BAKI İLƏ VAŞİNQTON ARASINDA SENSASİON RAZILAŞMA

Ötən həftə Bakıda keçirilən məxfi toplantıda Amerikadan münasibətlərin tənzimlənməsi üçün nələr istənilib?; Azərbaycanın Şanxay Əməkdaşlıq Təşkilatına üzv olacağı ilə bağlı proseslər Vaşinqtonu narahat edib; **ABŞ səfiri:** "Birgə komissiya məsələsi çözülür"...




yazısı səh.8-də

## Gürcüstandan Azərbaycana yeni Rusiya hədəsi - ilginc gəlişmə

Bakı-Supsa avantürasının qorxulu pərdəarxası; regionun iki işğalçı ölkəsinin - Rusiya və Ermənistanın eyni vaxtda Gürcüstanın içərilərinə doğru irəliləməsi ən əvvəl Bakıya təhdiddir...

yazısı səh.9-da



*İlham Rəhimov:*

### "Birinci yerə Vətəni qoyuram"

yazısı səh.5-də



### Kərəm Həsənovun biznesmen qardaşının mandatı geri alınır

yazısı səh.7-də



### Prezident jurnalistlərə fəxri adlar verdi

yazısı səh.6-da

# 21 iyul 2015



## Prezidentlərin görüşü ola bilər

**"ATƏT-in Minsk Qrupunun həmsədrləri ilin sonunadək Ermənistan və Azərbaycan prezidentlərinin növbəti görüşünü təşkil etmək fikrindədirlər". Bunu ATƏT-in Minsk Qrupunun amerikalı həmsədri James Warlick İrəvanda keçirdiyi mətbuat konfransında deyib. O qeyd edib ki, hələ ki prinsiplər və həllin detalları müzakirə edilir, amma tərəflər hələ ki konkret müzakirə mərhələsinə daxil olmayıblar.**

Həmsədrlər iyulun 20-də İrəvanda ölkə rəhbərliyi ilə görüşlər keçiriblər. İyulun 21-də isə Bakıya gələcəklər.

Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı ATƏT-in Minsk Qrupuna ABŞ, Rusiya və Fransa həmsədrlik edir.

## Əli Kərimin oğlu Orxan Kərimov vəfat etdi



**Şair Əli Kərimin oğlu Orxan Kərimov dünyasını dəyişib. "Qafqazinfo" xəbər verir ki, bu haqda iqtisadçı Azər Mehdiyev məlumat yayıb. Ekspert Orxan Kərimovun ölümündən sarsıldığını bildirib: "İndicə şair Əli Kərimin oğlu, dostumuz Orxan Kərimlinin ölüm xəbərini aldım. Amansız xəstəlik bu gözəl insanı çox gənc yaşında sıralarımızdan apardı. Son dərəcə üzüldüm. Sözlə ifadə olunası deyil. Allah rəhmət eləsin! Əzizlərinin başı sağ olsun".**

Qeyd edək ki, Orxan Kərimov bir neçə il öncə - Təhsil Nazirliyində çalışarkən həbs edilmişdi. Daha sonra o, azadlığa buraxıldı. O.Kərimov həbsdə olduğu müddətdə ürəyində ciddi problemlər meydana gəlmişdi.

## Narkotik bitkilər əkən iki qardaş tutuldu

**Zaqatala Rayon Polis Şöbəsinin (RPŞ) əməkdaşları rayon ərazisində narkotik tərkibli bitkilərin qanunsuz əkilib-becərilməsi ilə məşğul olan şəxslərin aşkarlanaraq istintaqa təhvil verilməsi istiqamətində tədbir keçirib.**

"Report" xəbər verir ki, rayonun Car kəndinin şimal-qərbində, Zaqatala Meşə Mühafizəsi və Bərpası Müəssisəsinin Car meşəbəyliyində narkotik tərkibli bitki hesab olunan çətənə kolu bitkisi əkilən sahə aşkar edilib.

Məlum olub ki, ərazidə narkotik tərkibli bitkini rayonun Car kəndinin sakinləri olan iki qardaş - 39 yaşlı İslam Tahir oğlu İbrahimov və 34 yaşlı Əhməd Tahir oğlu İbrahimov əkib.

Zaqatala RPŞ əməkdaşlarının və hal şahidlərinin iştirakı ilə ümumi sayı 358 ədəd olmaqla, 3 kq 220 qram narkotik bitki hesab olunan çətənə kolları bitkisi yığılaraq maddi sübut kimi istintaqa təhvil verilib. Əməliyyat tədbiri nəticəsində İslam və Əhməd İbrahimov qardaşları tutulub.

Faktla bağlı Zaqatala RPŞ-də cinayət işi başlayıb, araşdırma aparılır.

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.

**Telefon: (012) 434 93 01, 434 01 33**

"Elm" tədris mərkəzi

MAGIC LANGUAGES

- Ali məktəblər xarici dillər
- kompyuter kursları
- Magistratura - dövlət qulluğu - məntiq
- 1.C. mühasibat - anbar - bank işi
- Məktəbə qədər həftədə 5 dəfə
- Sürücülük kursları (1 aya 100 AZN)

**Ünvan:** 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
**Ünvan:** 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;
Mob: (055) 660-07-05

# Qətl şahidi olan nazir qardaşı müalicədən qayıtdı

**Qusarın Çiləgir kəndində nəqliyyat naziri Ziya Məmmədovun qardaşı Nəriman Məmmədovla quda olan 70 yaşlı Ramiz Gülməmməd oğlu Vəliyevin qətlə yetirilməsi işi üzrə istintaq davam edir. Rəsmi olaraq qətlin motivi açıqlanmasa da, mətbuatda bu haqda kifayət qədər məlumat yayılıb. Virtualaz.org-un məlumatına görə, qətli törədən Eynulla Hacıyev nazirin qardaşının qudasının evində gözətçi işləyib. Hadisə vaxtı N.Məmmədov qudasının villasında istirahətdə olub.**



Gözətçi E.Hacıyev R.Vəliyevi güllələyəndə nazirin qardaşı da ruhi sarsıntı keçirib, onun hətta qorxudan dili tutulub. Onu əvvəlcə rayon xəstəxanasına, oradan isə Bakıya gətiriblər. Sonradan isə məlum oldu ki, nazirin qardaşını Bakıdan Türkiyədəki xəstəxanalardan birinə aparıblar. Ən son məlumata görə, N.Məmmədov artıq Türkiyədən qayıdıb. Onu səhhətində hər hansı bir problem yoxdur.

Yada salaq ki, iyunun 30-da baş vermiş bu olaydan sonra yerli sakinlər R.Vəliyevin Eynulla Hacıyev adlı kənd sakini tərəfindən namus üstə öldürüldüyünü açıqlamışdılar. Demişdilər ki, hadisə biznesmen Ramiz Vəliyevin Çiləgir kəndindəki villasında baş verib. Eynulla Hacıyev bu villada gözətçi, onun bacısı isə qulluqçu işləyirmiş. O, qətli də bacısının şərəfini qorumaq üçün törədib. Eynulla Hacıyev hüquq-mühafizə orqanlarının tərəfindən saxlanılıb. Qusar rayon prokurorunun köməkçisi Anar Salehov Çiləgir kəndində baş verən qətl hadisəsini "Amerikanın səsi"nə təsdiqləmişdi.

Cinayətin motivinə gəlincə isə Anar Salehov bu barədə məlumat verməyib. "Hazırda istintaq gedir. Cinayətin motivi və gedişi ilə bağlı rəsmi məlumat yayılacaq" - deyə prokuror köməkçisi qeyd edib.

"Turan" agentliyinin xəbərində isə deyilir ki, gözətçi öz ailəsinin şərəfini qorumaq üçün R.Vəliyevi güllələyib. Faktla bağlı Qusar Rayon Prokurorluğunda Cinayət Məcəlləsinin 120-ci maddəsi (qəsdən adam öldürmə) ilə cinayət işi başlanıb.



## Dünya birjalarında neft ucuzlaşıb

**Nyu-Yorkun NYMEX əmtəə birjasında keçirilən elektron ticarət əməliyyatlarının gedişində WTI neftinin qiyməti 1 barelə görə 0,19 dollar azalaraq 50,70 dollar təşkil edib.**

"APA-Economics"in məlumatına görə, ICE London qitələrarası birjasında Brent markalı neftin 1 barelinin qiyməti 0,10 dollar azalaraq 57,00 dollar olub.

## PKK liderlərindən biri Almaniyada həbs edilib

**PKK terror təşkilatının rəhbərlərindən biri Almaniyanın Karlsrih şəhərində həbs edilib.**

"Report"un Anadolu Agentliyinə istinadən verdiyi xəbərə görə, "Kerim" təxəllüslü bu şəxs terror təşkilatının Almaniyadakı fəaliyyətinə nəzarət edibmiş.

Qeyd edək ki, rəsmi Berlin PKK-nın Almaniyadakı fəaliyyətini 1993-cü ilin noyabr ayında rəsmən qadağan edərək, bu təşkilatı terrorçu qurumlar siyahısına daxil edib.



## Qənimət Zahidin qardaşı oğulları həbs edilib

**"Azadlıq" qəzetinin baş redaktoru, "Azərbaycan saatı" verilişinin müəllifi, hazırda Fransada mühacir həyatı yaşayan Qənimət Zahidin daha bir qardaşı oğlu polis tərəfindən saxlanıb. Rüfət Zahidovu iyulun 20-də Yasamal rayonunda işlədiyi şirkətdən aparıblar. Bu barədə AzadlıqRadiosuna onun atası Fərasət Zahidov məlumat verib: "3 gündür ki, evimiz nəzarət altında idi. Gözətçi qoyulmuşdu ki, görsünlər bizə kim gəlib-gedir. Halbuki heç gəlib-gedənimiz yoxdur. İndi telefonuna zəng edirəm, zəng çatmır. İş yoldaşları öyrənib ki, hazırda Narkotiklərlə Mübarizə İdarəsindədir, biz də ora gedirik".**

Bir neçə gün öncə - iyulun 18-də Qənimət Zahidin Şamaxının Meysəri kəndində yaşayan başqa bir qardaşı oğlu - Tural Zahidov da saxlanaraq Şamaxı polisinə aparılıb. O, polis əməkdaşını təhqir etməkdə suçlanaraq 30 sutka həbs cəzası alıb. Qənimət Zahid AzadlıqRadiosuna açıqlamasında baş verənlərin "Azərbaycan saatı" ilə bağlı olduğundan əminliyini bildirib: "Şübhə etmirəm ki, bu həbs və təqiblər "Azərbaycan saatı" ilə bağlıdır. Başqa heç bir səbəb yoxdur. Hər kəs bilir ki, "Azərbaycan saatı" getdikcə populyarlaşır və əsl həqiqətləri ölkə əhalisinə çatdırır. Buna görə də hökumət qohumlarıma qarşı təqiblərlə mənə təsir etmək istəyir".

İyulun 20-si qeyri-iş günü olduğundan "Yeni Müsavat"ın əməkdaşı mühacirətdə olan baş redaktorun yaxınlarının həbsinin səbəbini öyrənmək üçün Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən rəsmi mövqe əldə edə bilməyib.

**E.MƏMMƏDƏLİYEV**

## BMT TŞ İranla bağlı qətnaməni yekdilliklə qəbul etdi

**İyulun 20-də BMT Təhlükəsizlik Şurası (TŞ) ABŞ-ın Vyana anlaşması çərçivəsində İranla bağlı təqdim elədiyi qətnamə layihəsini, gözlənildiyi kimi, yekdilliklə qəbul edib.**

Musavat.com-un xarici KİV-ə istinadən verdiyi məlumata görə, sənəd İranın nüvə proqramının beynəlxalq nəzarətə götürülməsini və Tehrana nüvə silahı əldə etməyə imkan verməməyi nəzərdə tutur.

Qətnamə yekdilliklə qəbul edilib - TŞ-nin 5 daimi və 10 müvəqqəti üzvü onu dəstəkləyib. Sənəd İran əgər MAQATE-nin nəzarəti altında bütün öhdəlikləri yerinə yetirərsə, bütün sanksiyaların mərhələ-mərhələ götürülməsini özündə ehtiva edir.

Yeni qətnamə Tehranın öhdəliklərə sadiq qalmayacağı təqdirdə ona qarşı sanksiyaların bərpası sxemini də nəzərdə tutur.

## KİVDF jurnalistləri mükafatlandırdı

**Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun (KİVDF) Azərbaycan milli mətbuatının 140 illik yubileyi ilə əlaqədar keçirdiyi fərdi jurnalist yazıları müsabiqəsinin qaliblərinin mükafatlandırılması mərasimi keçirilib.**

APA-nın məlumatına görə, tədbirdə çıxış edən KİVDF-nin icraçı direktoru Vüqar Səfərli deyib ki, müsabiqəyə 19 istiqamət üzrə 153 yazı təqdim edilib.

Bu istiqamətlər üzrə birinci yer üçün 500 manat məbləğində bir mükafat, ikinci yer üçün 400 manat məbləğində 2 mükafat, üçüncü yer üçün 300 manat məbləğində 3 mükafat nəzərdə tutulub. Ümumilikdə qaliblər üçün 114 mükafat nəzərdə tutulsa da, bir neçə istiqamət üzrə yazılar az təqdim olunub və buna görə də 111 jurnalist mükafatlara layiq görülüb.

KİVDF-nin elan etdiyi müsabiqədə birinci yer üçün mükafata layiq görülənlər sırasında "Yeni Müsavat" qəzetinin redaktoru Zahid Səfəroğlu da var.

## Avropa İttifaqının rəhbəri Cənubi Qafqaz ölkələrini gəzir

**Avropa Şurasının prezidenti Donald Tusk iyulun 20-22-də Cənubi Qafqaz ölkələrinə regional səfərə başlayıb.**

Avropa Şurasının saytında verilən məlumata görə, ayın 20-də Tusk Yerevana gedib, oradan axşam Tbilisiyə yola düşüb.

İyulun 21-də o, Gürcüstanda olacaq və 22-də Bakıya gələcək.

Səfər zamanı Tusk hər üç ölkənin prezidentləri və hökumət rəhbərləri, habelə vətəndaş cəmiyyəti və müxalifət nümayəndələri ilə görüşlər keçirəcək.

Məlumatda deyilir ki, səfərin və görüşlərin məqsədi bu ilin mayında keçirilmiş Riqa Sammitindən sonra Şərq Tərəfdaşlığı Proqramının həyata keçirilməsinin qiymətləndirilməsidir. Bu tədbirdə Donald Tusk Şərq Tərəfdaşlığının müddəalarının həyata keçirilməsi işində konkret nəticələr əldə etməyə çağırıb. "Bu səfər Avropa İttifaqının suveren tərəfdaşlarla yaxın, müxtəlifləşdirilmiş münasibətlərini inkişaf etdirməyə sadiqliyinin yaxşı nümayişi olacaq".

Qeyd edək ki, rəsmi Bakı dəfələrlə yüksək səviyyədə bildirib ki, Bakı və Brüssel arasında Şərq Tərəfdaşlığı çərçivəsində öhdəliklərdən kənar birbaşa əməkdaşlıq qurmağı zəruri hesab edir.

YENİ MÜSAVAT
N 156 (6184) 21 iyul 2015



Yazarımız Tofiq Yaqubluya Azadlıq!

# Bu gün iki hüquq müdafiəçisinin məhkəməsidir

## Tofiq Yaqublu və Ömər Məmmədov yaxınları ilə görüşüblər; Ramazanda əfv olmaması ümidsizlik yaradıb

**Bu gün-iyulun 21-də Bakı Apelyasiya Məhkəməsində hüquq müdafiəçiləri İntiqam Əliyev və Rəsul Cəfərovun şikayətlərinə baxılacaq. İ.Əliyevin bununla apelyasiya şikayəti mərhələsi yekunlaşa bilər. Hakimin son qərar verəcəyi gözlənilir.**

**Bu barədə musavat.com-a hüquq müdafiəçisinin vəkili Fəxrəddin Mehdiyev məlumat verdi:** "Apelyasiya Məhkəməsinin davamı olacaq. Təbii ki, əvvəl verdiyimiz vəsatətlər təkrar olunacaq. Həbs-qətimkan tədbirinin dəyişdirilməsi, şüşə arxasından çıxarılması barədə vəsatətlərimiz olacaq. Bundan əlavə, xarici ölkələrin birində xətt ekspertizası keçirilib. Keçən prosesdə biz onu ingilis dili variantında təqdim etdik. Vəsatət baxılmamış saxlanıldı. İndi yenidən təqdim edəcəyik. Sonra çıxışlar olacaq. İntiqam müəllimin özünün də çıxışı olacaq. Güman edirəm ki, məhkəmə bununla yekunlaşacaq".

Qeyd edək ki, məhkəmə 11:00-da başlayır.

**Rəsul Cəfərovun vəkili Fariz Namazlı məhkəmənin ilkin hazırlıq iclası xarakteri daşıyacağını qeyd etdi:** "Bu proses ilkin baxış iclasıdır. İlk iclasda məhkəmə istintaqının keçirilməsi ilə prosesin davam etdirilməsini xahiş edəcəyik. Bununla bağlı vəsatətimiz olacaq. Çünki müəyyən məsələlər var. Bu məsələlərə Ağır Cinayətlər Məhkəməsində obyektiv baxılmayıb. Bunun araşdırılmasına ehtiyac var. Hesab edirəm ki, məhkəmə 2-3 prosesə yekunlaşa bilər".

Proses 10:15-də başlayacaq.

**Vəkil hüquqlarını müdafiə etdiyi digər vicdan məhbusu, iyulun 24-də məhkəməsi başlayacaq araşdırmaçı jurnalist Xədicə İsmayıl barədə də danışdı:** "Düşünmürəm ki, məhkəmə təxirə salınsın. Məhkəmənin hazırlıq iclasıdır. İlk iclasda müəyyən vəsatətlər verəcəyik. Təbii ki, Xədicə İsmayılın təqsirinin olmaması, cinayət işinə xitam verilməsi ilə bağlı vəsatətlərimiz əsas olacaq. Bu vəsatətlər təmin olunmasa, digərlərini verəcəyik".

Məhkəmələri bitən məhbusların da son durumları ilə maraqlandıq.

**Müsavatçı qardaşlar Fərəc və Sirac Kərimlilərin atası Rafiq Kərimli bunları dedi:** "Siracla görüş 15 gündən birdir. Telefonla danışıb. Boynundakı şişi bərk ağrı verir. Həbs olunarkən döyülmə nəticəsində şiş yaranıb. Danışarkən yalnız bundan şikayətlənir. Fərəcin isə artıq apelyasiya şikayəti bitdiyindən "zon"a aparacaqlar. Yəqin ki, yaxın günlərdə hara aparılacağı məlum olacaq".

**Müsavat başqanının müavini Tofiq Yaqublunun qızı Nigar Yaqublu iyulun 19-da atası ilə görüşdüklərini qeyd etdi:** "Əfv mövzusunu birdəfəlik bağlamışıq. Heç bir gözləntimiz yoxdur. Nə Tofiq Yaqublu, nə ailəsi bu barədə heç bir yenilik gözləmir. Bayram günü olsa da, ənənəvi görüşlərdən biri oldu".

**REAL hərəkatının sədri İlqar Məmmədovun həyat yoldaşı Vəfa Məmmədova onun təbrikini çatdırdı:** "Bayramdan qabaq görüşmüşdük. Danışığı zamanı hər kəsi bayram münasibətilə təbrik etdi. Saxlanma şəraiti hələ ki normaldır".

**NİDA-çı gənc Rəşadət Axundovun həyat yoldaşı Türkan Hüseynova bayramdan öncə onunla görüşdüklərini söylədi:** "Əfvlə bağlı xüsusi bir sözü yox idi. Çünki əfv veriləndə qədər heç kəs dəqiq bir şey bilmir. Başqa bir yenilik yoxdur. Havalar sərin keçdiyindən bir az rahatdır".

**NİDA-çı gənc Ömər Məmmədovun atası Əlyar Məmmədov bayram günlərində oğlu ilə görüşüb:** "Normal görüş keçdi. Əhvalı yerindədir. Ramazanda əfv gözləyirdi. Amma alınmadı. İndi də Qurban bayramını gözləyir. Ümid edir ki, parlament seçkilərindən öncə buraxılacaq. Amma mən ümid etmirəm. Nə cür inanım? 18 yaşlı uşağı sosial şəbəkə yazılarına görə həbsə atıblar. 1 il 7 aydır həbsdədir..."



İntiqam Əliyev



Ömər Məmmədov

❑ Cavanşir ABBASLI

# Hüquq müdafiəçisinin Leyla Yunus haqda dedikləri qalmaqal yaratdı

## Mirvari Qəhrəmanlı: "Kimini Leylanın taleyi, kimini də öz mənafeləri maraqlandırır"



**Hazırda həbsdə olan Sülh və Demokratiya İnstitutunun (SDİ) rəhbəri Leyla Yunus və həyat yoldaşı Arif Yunusun iyulun 15-də başlayan məhkəməsindən sonra gəzən söz-söhbətlər səngimək bilmir. Xüsusilə SDİ rəhbərinin düşdüyü vəziyyət, məhkəmədəki görüntüləri çoxlarını heyrətə salıb.**

Sözsüz ki, L.Yunusun görüntüləndiyi üzgün durumuna acıyanlar daha çoxdur. Amma onu ruhdan düşdüyünə görə tənqid edənlər də az deyil. Belə şəxslərdən biri SDİ rəhbərinin rəfiqəsi, hüquq müdafiəçisi Mirvari Qəhrəmanlıdır. O, moderator.az-a açıqlamasında L.Yunusun özünə qarşı münasibətini sayğısızlıq adlandırıb: "Heç vaxt sahmansız adam qabağına çıxmaz idi. Niyə keçmiş zamanda deyirəm? İndi özünə qarşı bu sayğısızlığı xoşuma gəlmədi. Olmaz! Qadın hər yerdə qadındır. Gülər Əhmədova yadınızdadır? Leylanın evdə brend paltarları var. Kifayət qədər. Sadəcə, onu bu halda göstərən həm qapalı xəstəxana şəraitində yaşaması, həm də özünə qarşı sayğısızlığıdır. Düz eləmir. Özünü qaydaya salsa, həmişəki Leyla olacaq. İnsan, xüsusən qadın özünü sevməlidir. Heç inanmırdım ki, Leyla belə düşkünləşər. Çox güclü sanırdım onu. Çox... Sınmaq olmaz".

M.Qəhrəmanlının bu fikirləri mətbuat və sosial şəbəkələrdə geniş müzakirələrə səbəb olub. Onun tənqidçiləri müdafiəçilərindən çoxdur. Əksəriyyət hüquq müdafiəçisini L.Yunusu mətbuatda ittiham edir. Hətta bu cür fikirlərin müəyyən dairələrin tapşırıqları ilə səsləndirildiyini iddia edənlər də az deyil.

**Bu ittihamlarla bağlı facebook üzərindən hazırda Praqada olan M.Qəhrəmanlının mövqeyini aldıq. O, fikirlərinin müxtəlif istiqamətlərə yönləndirildiyini bildirdi:** "Leylanın mətbuat orqanlarında çıxan şəklini görəndə çox pis oldum. Mən Leylanı 20 ildən artıqdır ki, tanıyıram. Heç vaxt onu hətta evdə də olanda, xəstə də olanda bu vəziyyətdə görməmişdim. Bununla əlaqədar Leylanı güclü görmək istəyim, onu yazıq, qoca kimi sözlərlə mənən sındırmaq istəyənlərə təpkim, buna görə Leylaya çağırışım müxtəlif qüvvələr tərəfindən özlərinə sərf edən formada istifadə olundu. Başa düşürəm, hərənin öz siyasi məqsədi var. Məlumdur ki, kimini Leylanın taleyi, kimini isə özünün siyasi, maddi, mənəvi mənafeləri maraqlandırır. Bu da bir gediş, bir oyundur. Bu gündən bəyan edirəm ki, bu oyunların oyunçusuna çevrilməmək, sözlərimdən hərənin öz məqsədləri, ambisiyalarına görə istifadə olunmaması üçün Leyla ilə əlaqədar hər hansı bir suala cavab verməkdən imtina edirəm. Başqa suallarla bağlı mən həmişə mətbuat üçün açıq olmuşam və olacam da. Sonda Leylaya bir daha çağırış edirəm: güclü ol!"

❑ Cavanşir ABBASLI

# Ermənistan İran-Qərb anlaşmasından qazanmaq istəyir

## Orxan Qafarlı: "Ermənistan və İran arasında dəmir yolu və qaz xətlərinin inşası da var ki, sənəd sanksiyalar səbəbindən reallaşa bilmirdi"

**İran və Qərb arasında anlaşma Ermənistanda da məmnunluqla qarşılanıb. İranlı ekspert Puyya Hoseyni İrəvanda yerli jurnalistlərə bildirib ki, Ermənistanın istənilən məhsuluna İranda ehtiyac ola bilər.**

"İran - hər şeyi, yaxud demək olar, hər şeyi ala biləcək çox böyük bazardır. Odur ki, bəribaşdan məhdudiyyətlər praktik olaraq yoxdur. Hər iki ölkə bir-birinə olduqca çox şey təklif edə bilər" - qeyd iranlı ekspert qeyd edib. Bundan bir qədər əvvəl isə İran prezidenti bildirmişdi ki, nüvə razılaşmasının imzalanması "İranın qonşu ölkələrlə daha da yaxınlaşmasına səbəb olacaq".

Qeyd edək ki. İranın Ermənistanla enerji və ticarət sahəsində əlaqələri var və rəsmi Tehran bunu gizlətmir. Bir sıra müşahidəçilərə görə, İranla Qərb arasında münasibətlərin qaydaya düşməsindən Ermənistan da qazanc əldə etmək niyyətindədir.

**Yeni Türkiyə Araşdırmaları Mərkəzinin eksperti Orxan Qafarlının fikrincə, sanksiyalara görə dayandırılmış bir sıra layihələr yenidən işə düşə bilər:** "İran üzərindən ABŞ və Avropa ölkələrinin iqtisadi sanksiyaları qaldırması bu ölkənin Cənubi Qafqazda siyasi dostu Ermənistana müsbət təsir edəcək. Ermənistan və İran arasında dəmir yolunun çəkilməsi, qaz boru xətlərinin inşası kimi önəmli layihələr var ki, sənəd üzərindədir və bu sanksiyalar səbəbindən reallaşa bilmirdi. İran, Avropa və ABŞ banklarında dondurulmuş 100 milyard dollarını mərhələli olaraq geri aldıqdan sonra həm Cənubi Qafqazda və Orta Asyada uzun zaman planlaşdırdığı proyektləri reallaşdırmağa başlayacaq, həm də Ermənistan üzərindən enerji dəhlizi qurmaq və bununla Gürcüstanı iqtisadi olaraq Türkiyə və Azərbaycanın təsirindən qurtarmağı düşünür. Lakin İranın bunu bölgədə bir ABŞ müttəfiqi olaraq və Orta Asiyada, Cənubi Qafqazda Rusiyanın təsirini zəifləmək üçün etdiyini düşünmək yanlış olar. Çünki İran nə qədər ABŞ və Avropa ilə münasibətləri düzəltməyə çalışsa da, hər zaman bu münasibətlər üçün qırmızı xətlər mövcud olacaq. Nə qədər ki, İran İslam Respublikası adını daşıyacaq, Cənubi Qafqazda Türkiyəni özü üçün əsas rəqib görməkdə davam edəcək".



Orxan Qafarlı

**O.Qafarlı deyir ki, İranın yaxın gələcəkdə əsas hədəfi Gürcüstanın Poti limanına sahib çıxmaq və öz enerji ixracatını diversifikasiya etməkdir:** "Ermənistan, Gürcüstan və Ukrayna üzərindən Şərqi Avropaya enerji ixrac etməkdir. Hətta Türkmənistan qazını belə "Cənub qaz axını" ndan yayındıraraq Ermənistan, Gürcüstan və Ukrayna üzərindən Avropaya ixrac etmək. Bütün bu layihələr çox ciddi maddi və siyasi dəstək istəyəcək, lakin onu da qeyd etmək istəyirəm ki, İranın dünya siyasətində Rusiya-Qərb qarşıdurmasında strateji mövqeyi var ki, hər iki tərəfin maraqlarına cavab verə bilir. Bəlkə bu, İran xarici siyasətinin ustalığıdır. Ermənistan, Gürcüstan və Ukrayna ilə əməkdaşlığa Qərb tərəfindən dəstək ala bilir, eyni zamanda Rusiya da Tehranın bu siyasətindən narahat olmur. Çünki Rusiya İranı özünə strateji müttəfiq olaraq görür".

**Bu mənada ekspert deyir ki, qarşıdakı dönəmdə rəsmi Bakını regional siyasətdə çətin dövr gözləyir:** "Məncə, son zamanlar rəsmi Bakı İran, Ermənistan və Rusiya geopolitik xəttinin daha da güclənəcəyindən narahatdır və Moskva ilə yaxınlaşaraq bunun qarşısını almağa çalışır".

❑ KƏNAN

YENİ MÜSAVAT
N 156 (6184) 21 iyul 2015



# Mariya Qaydardan MŞ rəhbərliyinə mənəviyyat dərsi

Zahid SƏFƏROĞLU
zahid.safaroglu@box.az

**İnsanın dəyəri şübhəsiz ki, ən əvvəl mənsub olduğu topluma faydası ilə ölçülür. Bu da ilk növbəsində əməldən, işdən keçir, verilən vədlərdən, sözlərdən yox. Deyir, niyyətin hara - mənzilin də ora. Dünya gör-götür, ibrət dünyasıdır. Kim daha çox ibrət götürsə, cəmiyyətə və özünə daha faydalı olur. Müdrik adam isə hansı yaşda olur-olsun, ömrünün sonunadək başqalarının da səhvlərindən nəticə çıxarandır.**

Yazıya bu girişlə başlamağımızın səbəbi var təbii ki. Məsələ ondadır ki, bugünlərdə Rusiyanın keçmiş və demokrat baş naziri Yeqor Qaydarın qızı, Odessa vilayətinin qubernatoru Mixail Saakaşvilinin özünə təzəlikcə müavin təyin elədiyi rus qızı, gənc siyasətçi Mariya Qaydar Azərbaycanın bəzi siyasətçilərinin ibrət götürə biləcəyi bir açıqlama verib.

Mariya Ukraynaya işləməyə getməsinin səbəbini belə izah edib. Sitat: "Mən həmişə Ukraynanın ərazi bütövlüyünün tərəfdarı olmuşam və həmişə də Krımın ilhaqı, Ukraynanın şərqində aparılan müharibənin qəti əleyhinə çıxmışam. Bu mövqeyimi Rusiyada da dəfələrlə bəyan eləmişəm. Rəsmi siyasət və müharibə ilə razılaşmamağım Ukraynaya işləmək qərarı verməyimin səbəblərindən biridir".

Yada dərhal Milli Şuranın mühacir fəxri sədri Rüstəm İbrahimbəyovun Krımla bağlı söylədikləri düşür. Rüstəm bəy ötən ay Amerika nəşrlərindən birinə qalmaqallı müsahibəsində Krımın xalis rus torpağı olduğunu demişdi. Bununla da yarımadanın işğalına və deməli, Ukraynaya təcavüzə haqq qazandırmış, eyni zamanda beynəlxalq hüquqa hörmətsizlik göstərmişdi. Ən önəmlisi, belə bir açıqlama ilə dolaysıyla Dağlıq Qarabağın da işğalına bəraət verərək, antimilli bir mövqe sərgiləmişdi *(Maraqlıdır ki, həmin mövqeyə görə onu nə MŞ sədri Cəmil Həsənli qınadı, nə də Əli Kərimli - əksinə, onu müdafiə etməyə çalışdılar)*.

***

Bu, indi rus qızının Krımla bağlı prinsipial və ədalətli mövqeyi, bu da damarında azərbaycanlı qanı axan MŞ fəxri sədrinin yanaşması: Rüstəm İbrahimbəyov yüzdə yüz hansısa korporativ maraqlar naminə rusdan da artıq rus olmaq istəyir, "Roma papasından artıq katoliklik" edir, rus qızı Mariya isə səmimi olaraq ədalətin, haqqın tərəfini tutmağı özünə borc bilir - öz ölkəsində buna görə sərt tənqidlərə, hətta hədəflərə məruz qalsa da.

Və bununla Mariya Qaydar sözsüz ki, Azərbaycana da xidmət göstərmiş olur - Krım timsalında postsovet məkanındakı bütün işğalları pisləməklə, Ukrayna timsalında bizim də ərazi bütövlüyümüzü müdafiə eləməklə. Əminəm ki, Qarabağla bağlı da ona sual verilsə, eyni cavab olacaq: Azərbaycan torpaqları işğal olunub. İndi bizim üçün bu iki şəxsdən hansı daha qiymətlidir sizcə? Sözsüz ki - Mariya Qaydar.

Təşəkkürlər, Mariya, cəsur rus qızı! Sən bu mövqeyinlə həm də MŞ-də döşünə döyən bəzi siyasət adamların siyasət və mənəviyyat dərsi keçdin. Gerçəkdən də "Ot kökü üstə bitər"...

***

Azərbaycan əlbəttə ki, Aurelio Qriqoriu, Mariya Qaydar kimi prinsipial, milli maraqlarımıza xidmət edən fədakar xanımları, siyasətdəki dişi aslanları dəyərləndirməli, onların qədrini bilməlidir. Erməni bizim yerimizdə olsaydı... Hərçənd, bu dəqiqə rəsmi Bakı asqıranda da az qala üzünü şimala tutur...

***

Axı biz niyə beləyik? Baxın, erməni dünyanın hər yerində ermənidir. Şarl Aznavur Fransada doğulub və boya-başa çatıb. Ancaq təfəkkürcə, milli ruhca Serj Sərkisyandan geri qalmır və Ermənistana bağlı adamdır. Dağlıq Qarabağ məsələsində də erməni cəmiyyəti nə deyirsə, o da eyni mövqedədir.

Bizdə isə Azərbaycanda doğulan, onun çörəyini yeyib-suyunu içən azərbaycanlı 1-2 il Rusiyada, başqa ölkədə yaşayan kimi başlayır öz xalqına, onun maraqlarına, dilinə, dərd-sərinə yuxarıdan aşağı baxmağa, Vətənə bir çimdiklik xeyri dəymədiyi halda Vətəndən gileylənməyə, ən betəri, Azərbaycanın köklü mənafeyini yaşadığı dövlətin maraqlarının ayağına verməyə.

Heç olmasa, rus qızı Mariyadan nümunə götürün.

# Müsavat Qadınlar Birliyinin yeni sədri "Yeni Müsavat"a danışdı

## Alya Yaqublu: "Bəyəm birlik hərbi postdur ki...?"

**İyulun 19-da Müsavat Partiyası Qadınlar Birliyinin IV növbədənkənar ümumi yığıncağı keçirilib. Yığıncaqda Alya Yaqublu Müsavatçı Qadınlar Birliyinin sədri seçilib. Təşkilatın sərbəst Şura və NTK üzvləri də həmçinin seçilib. Qadınlar Birliyi seçkili orqanlarını formalaşdıraraq, öz fəaliyyətini bərpa edib. O, Müsavat Partiyasının Divan üzvüdür. Sədr seçiləndən sonra A.Yaqublu musavat.com-un suallarını cavablandırıb:**



Alya Yaqublu

**- Uzun müddətdən sonra Müsavat Qadınlar Birliyi fəaliyyətini bərpa edib. Durğunluq dövrünü yaşayan təşkilatda problemlərin öhdəsindən gəlmək üçün hansı planlarınız var?**

- Müsavatçı Qadınlar Birliyində bu gün heç bir problem yoxdur. Ötən ayın sonlarında partiyanın Divanı birliyin seçkili orqanlarının yenidən formalaşdırılması haqqında qərar vermişdi və dünən bu qərar icra olundu.

**- Seçkinin alternativsiz keçirilməsi müzakirə edilir. Alternativinizin olmamasına səbəb nə idi?**

- Seçkidə iştirak üçün birdən artıq namizəd olmayanda seçkini alternativsiz keçirmək durumu yaranır.

**- Nə zaman müsavatçı qadınlara sədr olmanız məsələsi gündəmə gəldi? Öz fikriniz idi?**

- Müsavatçı Qadınlar Birliyinə sədr olmaq təklifi birliyin üzvlərindən gəldi və mən də razılıq verdim.

**- Sizin sədr seçilməyinizlə Müsavat Qadınlar Birliyinin də artıq Müsavat başqanının komandasının əlinə keçdiyi bildirilir. Buna əks arqumentiniz varmı?**

- Bəyəm Qadınlar Birliyi hərbi postdur ki, kiminsə əlinə keçsin? Müsavat başqanının komandası bütün müsavatçılardan ibarətdir.

**- Müsavat Qadınlar Birliyinin parlament seçkiləri ilə bağlı planları nədir?**

- Müsavat Qadınlar Birliyi partiya daxilində qurum olduğu üçün seçkilərlə bağlı partiyanın planlarını icra etməklə məşğul olacaq.

**- Parlament seçkilərində özünüz namizədliyinizi verəcəksinizmi?**

- Yox, seçkilərdə iştirak etmək fikrim yoxdur.

❑ Röya RƏFİYEVA

# Əli Kərimlinin şöbə müdirini vəzifəsindən azad etməsinin sirri

## Rafiq Daşdəmirlini bitirən məktubda nə yazılıbmış?

**AXCP sədri Əli Kərimli partiyanın təşkilat şöbəsinin sədri Rafiq Daşdəmirlini vəzifəsindən azad edib. Əvəzində bu posta qurumun Səbayel şöbəsinin sədri Saqif Qurbanov gətirilib. R.Daşdəmirlinin çıxarılmamışdan 4 gün öncə istefa ərizəsi yazdığı deyilir.**



Rafiq Daşdəmirli

Sabiq şöbə müdirinin istefa ərizəsi yazması, 4 gün istefasının gizli saxlanılması suallar doğurmaya bilməz. AXCP daxilindən R.Daşdəmirlinin vəzifəsindən azad edilməsi ilə bağlı "Yeni Müsavat"a məlumat daxil olub. Adının çəkilməsini istəməyən mənbə R.Daşdəmirlinin istefa ərizəsi yazması ilə bağlı xəbəri yalanlayıb. Məlumatda qeyd olunur ki, o, Əli Kərimli tərəfindən məcburi şəkildə istefa verməyə məcbur edilib. Buna səbəb kimi də son günlərdə R.Daşdəmirli ilə bağlı AXCP-dən çıxarılan şəxslərin səsləndirdiyi fikirlər göstərilir. Mənbə onu da bildirdi ki, Əli Kərimli sabiq şöbə müdirindən facebookda admini olduğu partiyanın rayon təşkilatı sədrlərindən ibarət qrupu təhvil verməyi tələb edib. Bu da AXCP rəhbərliyinin ona qarşı olan inamsızlığı ilə əlaqələndirilir. Mənbənin verdiyi məlumatlardan biri də R.Daşdəmirlinin yerinə gətirilən Saqif Qurbanovla bağlıdır. O, Həsən Kərimovun yaxın adamlarından biridir. Bu yolla artıq partiya rəhbərliyində olan narazı şəxslərin təmizlənməsinə start verildiyi bildirilir. Qarşıdakı günlərdə də bir sıra şəxslərin "təmizləmə siyasəti"nin qurbanına çevriləcəkləri gözlənilir.

**İki ay öncə AXCP-dən bu şəkildə çıxarılan Nərimanov şöbəsinin təşkilati məsələlər üzrə şöbə müdiri Ağaşirin Tanrıverdioğlu "Yeni Müsavat"a açıqlamasında R.Daşdəmirlinin başına gətirilənlər barədə bəzi fikirlər səsləndirdi:** "AXCP-də təşkilat sədrlərdən ibarət gizli qrup var. Rafiq Daşdəmirli bu qrupun admini idi. Onun barəsində söz-söhbətlər çıxandan, mən onlar haqqında bəzi fikirlər deyəndən sonra Əli Kərimli Rafiqi çağırıb. Deyib ki, qrup üzvlərindən üzr istə və qrupu tərk et. O da qrup üzvləri ilə sağollaşıb və onların sırasını tərk etdiyini bildirib. Əli Kərimli deyib ki, sənin yerinə adam tapmayınca, istefa xəbərini açıqlama. O da söz verib ki, bu barədə danışmayacaq, sakitcə partiyanı tərk edəcək. Üç gün axtarışlardan sonra Səbayel şöbəsinin sədri Saqifi tapıblar. Rafiq öz ərizəsi ilə partiyadan çıxmayıb".

**Sabiq şöbə müdiri R.Daşdəmirlinin çıxarılması səbəblərindən də danışdı:** "Partiya üzvü olduğum vaxtlarin bir gündə Rafiq və Arzuman Məcidli məni görüşə çağırdılar. Arzuman və Rafiq mənə bir məktub verdilər. Dedilər ki, bu məktubu "Milliyyətim" qəzetində işıqlandır. Məktubu qəzetin redaktoru Sərdar Əlibəyliyə verdim. Onun özü də məktubun mənə verildiyi anı görüb. Məktubda gənclərin Əli bəyə müraciəti var idi. Müraciətdə deyilirdi ki, Həsən Kərimov və Gözəl Bayramlı gəncləri sıxır, bunlar vəzifələrindən uzaqlaşdırılsın. Təxminən bir həftə öncə bu məktubu Sərdar Əlibəyli Həsən Kərimova verib. Həsən bəy məktuba baxan kimi deyib ki, bu Rafiqin xəttidir. Ondan sonra məktubu Əli bəyə verib. Rafiqin məsələsi bundan sonra ortaya çıxıb. Nə qədər inandırmağa çalışsa da, mümkün olmayıb. Rafiq Əli bəyə deyib ki, onda Ağaşirinin sizin barədə dedikləri həqiqətdir. Kərimli bildirib ki, onu özüm bilərəm. Rafiq bu məsələlərdən sonra istefaya getməyə məcbur olub".

**Mövzuda adı keçən "Milliyyətim" qəzetinin redaktoru Sərdar Əlibəylinin də mövqeyini aldıq. O, deyilənləri təsdiq edərək, Əli Kərimliyə müraciət formasında olan məktubun ona verildiyini bildirdi:** "Bunu gözlərimlə görmüşəm. Siyasi arenada min cür belə oyunlardan çıxırlar. Ona görə də məktubu dərc etdim. İbrət dərsi götürməli üçün. Məktubda Əli Kərimliyə Həsən Kərimov və Gözəl Bayramlıdan şikayət var idi. Partiyada insanlar azad fikirlərini deməlidirlər. Yoxsa bu cür problemlər çıxır. Həmin məktubun kim tərəfindən yazıldığı mənə məlumdur".

Rafiq Daşdəmirlinin məsələyə münasibətini öyrənməyə çalışsaq da, mümkün olmadı.

Qeyd edək ki, AXCP-də problemlər bununla bitmir. Hər keçən gün partiya fəallarının ya qurumdan xaric olunduğunun, ya da istefa verdiklərinin şahidi oluruq. İyulun 18-də hazırda Avropa ölkələrinin birində mühacir həyatı yaşayan keçmiş siyasi məhbus Rəsul Mürsəlov istefa verib. O, bununla bağlı sosial şəbəkələrdə status paylaşıb.

❑ Cavanşir ABBASLI

YENİ MÜSAVAT
N 156 (6184) 21 iyul 2015

**"Xural.com" saytı hüquq professoru İlham Rəhimovdan müsahibə götürüb. Müsahibədə bir sıra maraqlı fikirlər, təfərrüatlar var. Musavat.com həmin müsahibənin ikinci hissəsini təqdim edir:**



# "Birinci yerə Vətəni qoyuram"

## İlham Rəhimov: "Gənclikdəki dostluqla yetkin yaşdakı dostluq arasında böyük fərq var"

***

*O, hər zaman Azərbaycan mətbuatının gündəmində olub. Haqqında olur-olmadıq şeylər yazılıb. Zamanında "Xural" olaraq da onu ən çox tənqid edənlərdən olmuşuq. Ancaq heç bir zaman azad mətbuata, müstəqil mediaya qarşı qırmızı xətti keçməyib. Söz azadlığına diqqətli yanaşıb. Hətta ən ağır zamanlarımızda - şərlənib içəri atılanda hamıdan, ələlxüsus da ondan - İlham Rəhimovdan zərbə gözləyərkən, bizə dostluq əli uzadıb. Əlindən gələni edəcəyini bildirib. Bəlkə də edib, amma bu, çox unikal və maraqlı hadisədir. Məmləkətdə dost deyib qulluğunda durduqların, ürək qızdırıb böyük bildiklərinin bir çoxları üzünə durmaq üçün fürsət gözləyərkən, zamanında incitdiyimiz və haqqında yazdığımız, tənqid etdiyimiz bir adam bu qaranlığın içində bizə əl uzadırdı. Biz təbii ki, mənəvi planda o əli sıxdıq. Qiymətləndirdik. Tanrı, beynəlxalq və yerli hüquq müdafiəçiləri və Azərbaycan prezidenti azadlığı qismət etdilər və biz bizə əl uzadan o adamla müsahibəyə getdik.*

*Biz hər zaman müsahibəni canlı-canlı götürmüşük. Amma İlham Rəhimovla bu, alınmadı. Suallar yazılı olaraq cavablandırıldı. Halbuki bütün suallar ayrı-ayrı mövzulara həm də keçid idi. Ona görə də müsahibədə bəzən elə qənaət yarana bilər ki, biz mövzunu davam etdirməmişik.*

*İlham Rəhimovla o zamanın tənqidi yazılar mövzusuna da toxunduq və onun da maraqlı yanaşması oldu: "Hamısı ona görədir ki, məni yaxşı tanımırsınız. Mənim öz prinsipim var: kimsə təhqir etsə, cavabını alar, amma kimsə haqqımda xoşuma gəlməyən nəsə yazsa, bununla barışa bilərəm. Sizi heç vaxt düşmənim saymamışam, hərçənd Siz jurnalistsiniz."*

*İlham Rəhimovla çox şeydən danışdıq. Bəzi suallarımıza, ümumiyyətlə, cavab verməsə də, əsasən verdiyimiz bütün sualları cavablandırdı. Onunla ilk sevgisindən tutmuş dostluğa bəslədiyi münasibətə, həyat yollarındakı çətinlikdən tutmuş "oliqarx" adının verdiyi əsəbə qədər danışdıq...*

***(Əvvəli ötən sayımızda)***

***- Dostluq anlayışına münasibətiniz necədir?***

- Bildiyiniz kimi, dostluq haqqında çox deyilib, yazılıb və deyiləcək. Bütün bunlar öz yerində. Məsələn, Aristotel deyir: "Dost iki bədəndə yaşayan bir qəlbdir". Ümumiyyətlə,



dostluğun klassik, konkret ölçüsü yoxdur, daha çox zamana ehtiyacı olar. İnsanlar mövcud olduqları tarixdən bəri bu kövrək və mürəkkəb prosesin tərəfləri olurlar. Klassik deyimlər çoxdur, fikrimcə, dostluq zamanla insan arasında münasibəti aydınlaşdıran bir prosesdir. Kim güclüdür? Kim bilir... Əsl dostluğun mahiyyəti zamanla insan üzbəüz dayananda bilinir. Məncə, zamana uduzan insan çətin ki, başqa münasibətlərdə sabit qalsın.

Dostluğun əsl mənasını müəyyən qədər yetkinləşəndən sonra dərindən dərk etdim. Gənclikdəki dostluqla yetkin yaşdakı dostluq arasında böyük fərq var. Birinci halda dostluq səmimi və təmənnasız olur - mənəviyyat prinsiplərinə, ikinci halda isə sağlam düşüncəyə əsaslanır. Məktəbdə oxuyanda elə hesab edirdik ki, dostluğumuz əbədidir, məktəbdən sonra da dostluq edəcək, ünsiyyətdə olacağıq. Bu hisslərimiz çox səmimi və dürüst idi. Amma bilməzdik ki, bu, yalnız bizim arzu və istəyimizdir. Demə, həyat öz şərtlərini diktə edir. Amma indi yetərincə həyat yaşamışam və deyə bilərəm ki, əsl möhkəm dostluq yalnız yaxşı insanlar arasında ağıl və yaşın yetkin dövründə ola bilər. İndi anlamışam və dərindən əminəm ki, əxlaqi və mənəvi səviyyənə uyğun gələn dostları seçmək lazımdır, bu keyfiyyətlərdə səndən geri qalanı yox.

Eyni zamanda nəzərə almaq lazımdır ki, nöqsansız insan olmur. Ona görə yunan filosofu Biasın (e.ə. VI əsr) sözlərini xatırlamaq lazımdır: "Qüsursuz dost axtaran dostsuz qalar". Bu baxımdan, çoxları zamanın hökmünə biət etməyə məcbur olur.

***- Əgər dostun və millətin maraqları üst-üstə düşmürsə, yəni ziddirsə, kimi seçmək lazımdır?***

- Anladım ki, nəyəsə eyham vurursunuz. Mən eyhamları sevmirəm. Bu, daha çox nəzəri sualdır. Çünki həyatda belə şeylər nadir hallarda və təbii səbəblərdən olur. Səndən asılı olmayan arzuedilməz şərait insanı belə situasiyaya sala bilər. Amma əgər artıq fakt qarşısında qalibsansa, mən tərəddüd etmədən birinci yerə Vətəni qoyuram. Dostum həqiqi dostdursa, mənim qərarımı hörmətlə, müdrikcəsinə qarşılayar.

***- Bir müsahibənizdə "Putinə dost kimi güvənmək olar" demisiniz. Putinə dost kimi güvənmək olarsa, milli məsələlərdə necə, dost kimi güvənilən ola bilərmi?***

- Bizim 45 ildir davam edən dostluğumuz göstərir ki, o, dostluqda çox etibarlı adamdır. Yoxsa dostluğumuz çoxdan sona çatardı.

***- Zaman-zaman Dağlıq Qarabağ məsələsi haqqında Putinlə qeyri-rəsmi söhbətlər etdiyiniz haqda mətbuata danışmısınız. Maraqlıdır, Putin qeyri-rəsmi söhbətlərdə Qarabağ haqqında nə deyir? Problemin həlli haqqında nə düşünür?***

- Vaxtaşırı təkcə Putinlə yox, Rusiyanın məşhur siyasətçiləri, alimləri, vəzifəli şəxsləri ilə qeyri-rəsmi siyasi söhbətlərim olur. Təbii ki, Dağlıq Qarabağ məsələsi barədə də danışırıq. Rəsmi söhbətləri aparmağa hüququm yoxdur, bu, mənim səlahiyyətim deyil. Bunun üçün hakimiyyətin müvafiq dövlət strukturları var. Ümumiyyətlə, heç vaxt özfəaliyyətlə məşğul olmuram.

**"Vaxtaşırı təkcə Putinlə yox, Rusiyanın məşhur siyasətçiləri, alimləri, vəzifəli şəxsləri ilə qeyri-rəsmi siyasi söhbətlərim olur. Təbii ki, Dağlıq Qarabağ məsələsi barədə də danışırıq"**

***- Bir zaman dost olduqlarınızla sonralar münasibətiniz kəskin formada pisləşdi, bəlkə ilk addımı siz atasınız?***

- Çoxları ilə belə olur. Bu, tamamilə normal haldır. Sualınızda yenə eyham hiss olunur. Ona görə mən də bu vasitəyə əl ata bilərəm. Hərçənd bunun məndə ikrah doğurduğunu demişəm. Siz yəqin dostlarınızı nəzərdə tutursunuz, ancaq bilmirəm, onlar sizin üçün də keçmişdir, ya yox? Prinsipcə, mən həmişə dostluğu qorumağa çalışıram, ancaq əgər o dağılırsa, məndən asılı olan hər şeyi edirəm ki, bu, mənim günahımdan baş verməsin. Keçmiş dostlarıma mümkün qədər hörmət və ehtiramla yanaşmağa çalışıram, olduğum yerdə heç kimə onlar barədə pis nəsə deyilməsinə imkan vermirəm. Həmçinin vəziyyətdən asılı olaraq həmişə barışığa doğru xoş addım atmağa hazıram.

***- "Putinlə bir-birimizə qalstukdan, kitabdan başqa hədiyyə verməmişik" deyirsiniz. Bilmək olarmı hansı marka qalstuk və hansı kitablardan söhbət gedir?***

- Bir qayda olaraq müxtəlif markalardan. Ona bağışladığım son kitab Bakıda nəfis tərtibatda çap edilən "Ömər Xəyyam və rubailəri" kitabıdır. Putin bu şairi çox sevir.

***- Azərbaycanda böyük işlər görməməyin başqa bir səbəbi varmı? Məsələn, hakimiyyətdən narahatçılıq manasında-filan...***

- Məlum olduğu kimi, bütün biznesimiz Moskvadadır. Orada həmçinin bizim üçün şərait yaradıldığından Moskvadan kənarda pul yatırmaq və hər hansı obyekt almaq planlarımıza daxil deyil. Respublikamıza gəldikdə, bizim üçün məqbul və sərfəli investisiyalar olsa, böyük məmnuniyyətlə bundan istifadə edəcəyik.

***- 2015-ci il parlament seçkilərinə qoşulacaqsınızmı? "Bir ölülər, bir də dəlilər fikirlərini dəyişmir" deyibsiniz, indi nə düşünürsünüz?***

- Bir müddət əvvəl dediklərimi yenə təsdiq edirəm. Zaman göstərər. Ümumiyyətlə, nəyisə planlaşdırmağı, hadisələri proqnozlaşdırmağı sevmirəm.

***- Konyak kolleksiyanızın olduğu haqqında oxudum. Maraqlıdır, kolleksiyanızda neçə konyak var?***

- Onları saymağa macalım olmur. Bütün dostlarım bu həvəsimdən xəbərdardır və hər dəfə kolleksiyama əlavələr edirlər.

***- Hacı Zeynalabdin Tağıyevin Parisdəki masası... Niyə gedib o masanın müqaviləsini bağlamırsınız?***

- Düzünü desəm, bu layihənin taleyi barədə məndə dəqiq məlumat yoxdur. Ancaq bu, biznes və ondan fayda götürmək baxımından deyil, daha çox bu böyük azərbaycanlının işıqlı xatirəsinin əbədiləşdirilməsi üçün böyük maraq kəsb edir. Yaxın günlərdə Parisdə olacam, əgər siz bu məsələ ilə bağlı müəyyən məlumat toplasanız, mütləq bununla ciddi məşğul olacam.



## Zakir Həsənov Belarusun Azərbaycandakı səfiri ilə görüşdü

**Müdafiə naziri Zakir Həsənov Belarusun Azərbaycandakı səfiri Nikolay Patskeviçlə görüşüb. APA-nın Müdafiə Nazirliyinin saytına istinadən verdiyi məlumata görə, görüşdə Azərbaycanla Belarus arasında hərbi, hərbi-texniki sahədə mövcud əlaqələrdən razılıq ifadə olunub və bu istiqamətdə fəaliyyətlərin genişləndirilməsinin vacibliyi qeyd olunub.**

Sonda səfir qəbula görə minnətdarlığını ifadə edərək Azərbaycandan xoş təəssüratlarla ayrıldığını vurğulayıb.





## Bakıda qadınların əxlaqsızlığa cəlb edildiyi kafelər sökülür

### Müsavat.com-un yazdığına icra hakimiyyəti reaksiya verdi

**Bakıda fəaliyyət göstərən əxlaqsızlıq yuvası sökülür. 20 iyul, saat 19 radələrində Sabunçu bazarı ərazisində fəaliyyət göstərən kafelərin söküntüsünə başlanılıb. Musavat.com xəbər verir ki, söküntü işləri Sabunçu Rayon İcra Hakimiyyəti və Sabunçu Rayon Polis İdarəsinin əməkdaşları tərəfindən aparılır. Sökülən kafelər Sabunçu bazarının ərazisində yerləşir.**





Bir neçə gün əvvəl musavat.com olaraq bu cür kafelərin fəaliyyəti haqda geniş yazı yazmışdıq. Yazıda kafelərdə Azərbaycanın müxtəlif rayonlarından Bakıya gələn azyaşlı qızların əvvəlcə ofisiant kimi işlədiyi, daha sonra isə insan alverinin qurbanı olduğu qeyd edilirdi. Bu kafelərdə baş verən bir neçə dava və qətl hadisələri haqda da məlumat vermişdik.

Dərc etdiyimiz yazıda hazırda söküntü işlərinin getdiyi kafedə baş verən və azyaşlı qızların da iştirak etdiyini əks etdirən videogörüntü yerləşdirilmişdi.

Musavat.com olaraq gənc qızların bu yoldan çəkindirilməsi, bu cür kafelərin fəaliyyət göstərməsinə şərait yaradanların cəzalandırılması üçün hüquq-mühafizə orqanları tərəfindən lazımi tədbirlərin görülməsinin vacibliyini diqqətə çatdırmışdıq.

Həmin yazını müsavat.com saytında - bu linkdən oxuya bilərsiniz:

http://musavat.com/news/sosial/rayondan-bakiya-qachan-qadinlarin-aci-heyati-oldurulen-ve-ya-insan-alverinin-qurbanina-chevirilenler-videolar-fotolar_278813.html

❑ **Musavat.com**

# Prezident jurnalistlərə fəxri adlar verdi

### “Əməkdar jurnalist” adına layiq görülənlər sırasında Rauf Arifoğlu da var; “Yeni Müsavat”ın baş direktoru isə “Tərəqqi” medalı aldı

**Prezident İlham Əliyev kütləvi informasiya vasitələri nümayəndələrinin təltif edilməsi haqqında sərəncam imzalayıb.**



*Prezidentin digər sərəncamı ilə Azərbaycanda kütləvi informasiya vasitələrinin inkişafındakı xidmətlərinə görə aşağıdakı şəxslərə Azərbaycan Respublikasının fəxri adları verilib:*

***“Əməkdar Jurnalist”***

*Abbasov Rauf Arif oğlu (Rauf Arifoğlu)*
*Abdullayev Mübariz Əhməd oğlu*
*Abdullayeva Ülviyyə Bazim qızı*
*Abdulov İlham Rasim oğlu*
*Babayev Elman Şahbaba oğlu*
*Babayev Fuad İlyas oğlu*
*Cavadov Nərman Əhməd oğlu*
*Əsgərov Mübariz Ağali oğlu*
*Əsgərzadə Qafar Ələsgər oğlu*
*Hacalıyev Elnur Bəybala oğlu*
*Həsrət Azər Hacıqulu oğlu*
*Hüseynova Qahirə Müslüm qızı*
*Hüseynzadə Bayram Əvəz oğlu*
*Xəlilov Azər Nəriman oğlu*
*İbrahimova İradə Məmməd qızı*
*İsmayılov İmamverdi İbiş oğlu*
*İsmayılova Ləman Aləşrəf qızı*
*Mehdiyev Mehman Mehdi oğlu*
*Mehrəliyev Elimxan Abdulbağı oğlu*
*Məhərrəmov Akif Əli oğlu*
*Məhərrəmova Təranə Sərdar qızı*
*Məmmədov Səhrəd Hüseyn oğlu*
*Məmmədova Xuraman İsmayıl qızı*
*Mikayılova Sevil Əlirazı qızı*
*Mustafayev Sabir Yadulla oğlu*
*Mustafayev Samir Elman oğlu*
*Nəbiyeva Bəturə Qiyas qızı*
*Ocaqova Cəmilə Rasim qızı*
*Orucov Yunis Qurbanəli oğlu*
*Qasımov Hamlet Zeynal oğlu*
*Qasımov Qəhrəman Əmirağa oğlu*
*Qasımova Tünzalə Yusif qızı*
*Quliyev Ələmdar Allahverdi oğlu*
*Quliyeva Aynur Camal qızı*
*Quliyeva Qərənfil Dünyamin qızı*
*Quliyev İlham Abasqulu oğlu*
*Rüstəmov Qabil Abbas oğlu*
*Rzayev Yusif Məmməd oğlu*
*Sadıqova Flora Yusif qızı*
*Salahlı Səyyad Adil oğlu*
*Salamov Akif Salam oğlu*
*Səidov Abdulməcid İbrahim oğlu*
*Şərifov Vaqif Gülmirzə oğlu*
*Vəliyev Elçin Yavər oğlu*

***“Əməkdar Mədəniyyət İşçisi”***

*Abbasquliyeva Fatma Asəf qızı*
*Abdullayev Məsayim Hacıxan oğlu*
*Ağasiyev Mir Ələkbər Fəxrəddin oğlu*
*Daşdəmirov Ədalət Miraləm oğlu*
*Əbdülhəsənov Tofiq Əbdüləziz oğlu*
*Ələsgərov Məmmədrza Hüseyn oğlu*
*Ələsgərova İradə Hacı qızı*
*Əsədov Yavər Şahsuvar oğlu*
*Həsənov Rəhman Salman oğlu*
*Həsənov Ziyadxan Qaryağdı oğlu*
*Məcidova Xeyransa Abdulrəhim qızı*
*Məmmədov Ağəli Abi oğlu*
*Məmmədov Əsəd Teymur oğlu*
*Nəmətov Bəybala Mürsəl oğlu*
*Salmanov Rafiq Məmməd oğlu*
*Salmanov Süleyman Əli oğlu*
*Sultanova Laçın Allahverdi qızı*

***Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin inkişafındakı xidmətlərinə görə aşağıdakı şəxslər təltif ediliblər:***

***2-ci dərəcəli “Vətənə xidmətə görə” ordeni ilə***

*Alışanov Arif Nizam oğlu*

***3-cü dərəcəli “Vətənə xidmətə görə” ordeni ilə***

*Amaşov Əflatun Əhməd oğlu*
*İvanov Aleksandr Alekseyeviç*
*Məhərrəmov Nuşirəvan Umud oğlu*
*Səfərli Vüqar Müzəffər oğlu.*

***“Tərəqqi” medalı ilə***

*Abbasov Vahid Hüseyn oğlu*
*Abdullayeva Nigar Nizami qızı*
*Abdullayev Anar Bayram oğlu*
*Bağırov Rəşad Bağır oğlu*
*Balayev Səlim Loğman oğlu*
*Bayramov Ceyhun İsmayıl oğlu*
*Bayramov Vaqif Binyat oğlu*
*Bayramova Nəzakət Ələddin qızı*
*Bədəlov Qurban Yaqub oğlu*
*Cəfərov Ələskər Əvəz oğlu*
*Cəfərova Mahirə Şahmalı qızı*
*Eyvazov Əliəkbər Eylaq oğlu*
*Eyvazov Şöhrət Qulam oğlu*
*Əfəndiyev Pünhan Şövkət oğlu*
*Əfəndiyeva Mehriban Füzuli qızı*
*Əhmədov Qələndər İslam oğlu*
*Əhmədov Yusup Seyid oğlu*
*Əli-zadə Fuad Asim oğlu*
*Əliyev İbrahim Məmmədrza oğlu*
*Əliyev İlham Yaylaqalı oğlu*
*Əliyev Seymur Barat oğlu*
*Əliyev Vüqar Saydam oğlu*
*Əliyeva Sevil Allahverən qızı*
*Əlizadə İmdad Əli oğlu*
*Əmiraslanova Ceyran Famil qızı*
*Əzimova Sara Nurəddin qızı*
*Əzizov Anar Çingiz oğlu*
*Əzizov Xətayi Kamal oğlu*
*Həmidov Kamil Həmzə oğlu*
*Həmidov Ramiz Firidun oğlu*
*Həsənova Hüsniyyə Faiq qızı*
*Həsənov Nəcəf İsmayıl oğlu*
*Hümbətov İntiqam Rəsul oğlu*
*Hüseynəliyev Fuad Polad oğlu*
*Hüseynov Tofiq Yusif oğlu*
*Hüseynova Lalə Qurbanəli qızı*
*Hüseynzadə Fuad Abı oğlu*
*İbrahimova Pərvanə Yəhya qızı*
*İsmayılov Səməd Cabbar oğlu*
*Kalaşnikova İrina Vladimirovna*
*Mahmudov Tofiq Cavad oğlu*
*Manafova Gülnarə Rafiq qızı*
*Məhsimov Məhsim Sədulla oğlu*
*Məlikov Rüstəm Sadıq oğlu*
*Məmmədli Yadigar Tarix oğlu*
*Məmmədov Rövşən Raqif oğlu*
*Məmmədov Elçin Nadir oğlu*
*Məmmədov Elxan Qadir oğlu*
*Məmmədov Elnur Xanmurad oğlu*
*Məmmədov İnqilab Mirzə oğlu*
*Məmmədov Muxtar Məmməd oğlu*
*Məmmədov Sabir Süleyman oğlu*
*Məmmədov Telman İsa oğlu*
*Məmmədov Vüsal Fəxrəddin oğlu*
*Mirzəyev Ayaz Nizami oğlu*
*Musayev Ceyhun Musa oğlu*
*Musayeva Aytən Telman qızı*
*Mustafayev Seyfulla Fuadoviç*
*Mustafayeva Samirə Müseyib qızı*
*Namazəliyev Məcnun Surxay oğlu*
*Nəbiyeva Şəhla Valeh qızı*
*Nəcəfov Sənan Maqsud oğlu*
*Nəzərov Vüqar Zakir oğlu*
*Novruzova Gülnar Baba qızı*
*Nuriyev Azər Vasif oğlu*
*Nurullayeva Nəzirə Rafiq qızı*
*Qarayev Zülfüqar Qubad oğlu*
*Qasımov İsmayıl Ərşad oğlu*
*Qasımov Qasım İslam oğlu*
*Qasımova Aynurə Mehman qızı*
*Qazıyeva Nailə Nəbi qızı*
*Qənbərov Qafar Tahar oğlu*
*Qocayev Natiq Vəli oğlu*
*Quliyev Ceyhun Vaqif oğlu*
*Quliyev Famil Əliqulu oğlu*
*Quliyev Namiq Abbasqulu oğlu*
*Quliyev Nurşən Ağacan oğlu*
*Quliyev Vasif Xosrov oğlu*
*Quluyeva Zülfiyyə Telman qızı*
*Qurbanlı Əvəz Qubadxan oğlu*
*Salmanov Hüquq Yaqub oğlu*
*Seyidov Tofiq Mirhəsən oğlu*
*Səfərov Ceyhun Quba oğlu*
*Səlimov Səlim Əziz oğlu*
*Sultanov Ziyyədin Kamal oğlu*
*Süleymanov Ələsgər Süleyman oğlu*
*Şirinova Arzu Xasay qızı*
*Tahirli Sahil Abdulla oğlu*
*Yolçuyev Əkbər Mehdi oğlu*
*Yusifzadə Anar Yusif oğlu*
*Zeynalova Vəsilə Vahid qızı*

***Prezidentin növbəti sərəncamı ilə aşağıdakı şəxslər “Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu” ilə təltif ediliblər:***

*Abbaslı Adəm Famil oğlu*
*Allahyarov Mahir Cəlal oğlu*
*Azərtaş Lalə Qabil qızı*
*Babayev Aqşin Kamal oğlu*
*Cabbarzadə Xatirə Hafiz qızı*
*Cəfərli Elman Niyazil oğlu*
*Didavari Rövşən Tofiq oğlu*
*Eynullayeva Sudabə Cahangir qızı*
*Əhədova Sevda Sabir qızı*
*Əliyev Həbib Əli oğlu*
*Gözəlov Vüsal Tapdıq oğlu*
*İmaməliyeva Tahirə Məmməd qızı*
*Məmmədov Şaiq Məmməd oğlu*
*Məmmədova Gülnarə Sultan qızı*
*Nəsirova Aynur Əli qızı*
*Nurəliyeva Pərvin Ələmdar qızı*
*Qut Arye*
*Tağıyev Tahir Məmmədqulu oğlu*
*Vəliyev Azər Kalam oğlu*
*Yirik Betül*
*Zeynalov Vaqif Mehrac oğlu*

***Azərbaycanda kütləvi informasiya vasitələrinin inkişafındakı xidmətlərinə görə aşağıdakı şəxslərə Prezidentin fərdi təqaüdü verilib:***

*Əhmədov Teymur Əkbər oğlu*
*Mikeladze Qalina Ələkpərovna.*

YENİ MÜSAVAT
N 156 (6184) 21 iyul 2015

# Ekspert dövlət sirri ilə bağlı yeni tələblərdən danışdı

## Arzu Nağıyev MTN-in tələblərinin yenilənməsinin müharibə hazırlıqları ilə əlaqəsini istisna etmir

**Milli Təhlükəsizlik Nazirliyi (MTN) "Dövlət sirrinin mühafizəsi üzrə bölmələrin fəaliyyəti üçün şəraitin uyğunluğunu şərtləndirən tələblər"i təsdiq edib.**

APA-nın məlumatına görə, bu tələblərin müddəaları Azərbaycan ərazisində və onun hüdudlarından kənarda Azərbaycan Respublikasının dövlət hakimiyyəti orqanları, təşkilati-hüquqi formasından və mülkiyyət növündən asılı olmayaraq, dövlət sirri təşkil edən məlumatla bağlı işlər yerinə yetirən müəssisə, idarə və təşkilatlar, Azərbaycan Silahlı Qüvvələrinin birlikləri, hərbi birləşmələri, müəssisələri, qanunvericiliyə uyğun olaraq yaradılmış digər hərbi qurumları tərəfindən əsas götürülməlidir. Tələblərin hazırlanmasında məqsəd dövlət sirrinin mühafizəsi üzrə bölmələrin (DSMB) dövlət sirri təşkil edən məlumatların sənədləşdirilməsi və müvafiq sənədlərlə işin təşkili üzrə fəaliyyətin həyata keçirilməsi üçün daha münasib şəraitin yaradılması, dövlət sirri təşkil edən məlumat daşıyıcılarının nəzarətdən çıxması, itirilməsi, aidiyyəti olmayan şəxslərin onlarla tanış olması, surətinin çıxarılması, şəklinin çəkilməsi, yanğın, təbii fəlakət və texnogen qəzalar zamanı məhv olması risklərinin aradan qaldırılması, dövlət sirrinin və onun daşıyıcılarının daha etibarlı mühafizəsinin təmin edilməsidir. Hər bir təşkilatda DSMB-nin fəaliyyəti üçün şəraitin uyğunluğunu şərtləndirən tələblər dövlət sirri sahəsində mövcud qanunvericiliyin müddəalarını rəhbər tutaraq Milli Təhlükəsizlik Nazirliyi tərəfindən təşkilatın fəaliyyət istiqamətləri, təşkilatın yerinə yetirdiyi işlər, təşkilatın yerləşdiyi ərazi, təşkilatın inzibati binasının quruluşu, təşkilatda mövcud olan işçilərin say tərkibi və təşkilatda mövcud olan dövlət sirri təşkil edən məlumatların həcmi nəzərə alınaraq hazırlanır və həmin təşkilata təqdim olunur. DSMB-nin fəaliyyəti üçün şəraitin uyğunluğunu şərtləndirən tələblər təşkilatın tabeliyində olduğu strukturun rəsmi müraciəti əsasında və ya idarələrarası nəzarətin həyata keçirilməsi ilə bağlı yoxlama zamanı şəraitə uyğun gəlməyən hallar aşkar olunduqda təhlükəsizlik orqanı tərəfindən bir ay müddətində müəyyən edilir. DSMB yeni yaradıldıqda, təşkilatın dislokasiya yeri dəyişdirildikdə, DSMB əsaslı təmir olunduqda və ya bölmə yeni otağa köçdükdə təhlükəsizlik orqanı tərəfindən DSMB-nin fəaliyyəti üçün uyğun şəraitin mövcudluğu barədə rəy verilir. DSMB-nin fəaliyyəti üçün şəraitin uyğunluğu tələblərə cavab verdikdə, təşkilat rəhbərliyi məktubla təhlükəsizlik orqanına rəy alınması üçün müraciət edir. Təhlükəsizlik orqanı bir ay ərzində DSMB-nin fəaliyyəti üçün uyğun şəraitin mövcudluğuna dair rəy verir. Rəy iki nüsxədə tərtib olunmaqla təhlükəsizlik orqanının müvafiq struktur bölməsinin rəisi tərəfindən təsdiq edilir. Rəyin birinci nüsxəsi təşkilata göndərilir, ikinci nüsxəsi təhlükəsizlik orqanında saxlanılır. Rəydə təşkilatın adı, ünvanı, DSMB-nin adı, DSMB-nin otağının yerləşdiyi mərtəbə, otaqların sayı, yaradılmış şəraitə baxılma tarixi, DSMB-nin fəaliyyəti üçün şəraitin uyğunluğunu şərtləndirilən tələblər əks olunur, həmçinin rəy tərtib etmiş şəxslər tərəfindən imzalanır. DSMB-nin fəaliyyəti üçün şəraitin mövcudluğu tələblərə cavab vermədiyi təqdirdə 15 gün müddətində mövcud nöqsanların aradan qaldırılması üçün vaxt verilir. Bu müddət ərzində çatışmazlıqlar aradan qaldırılmasa, yaradılmış şəraitə baxılması üçün təşkilat rəhbərliyi təhlükəsizlik orqanına məktubla müraciət etməlidir.



MTN-in yeni tələbi NATO-nun Azərbaycanın müharibə hazırlıqları aparması haqda məlumat-proqnozlar verdiyi bir vaxta təsadüf edib. Yeni tələbin ortaya çıxması ilə müharibə hazırlıqları arasında səbəb-əlaqə varmı?

**MTN-in sabiq zabiti Arzu Nağıyev deyir ki, yeni qurum, spesifik sahə yarananda tələblər də yenilənir:** "Məxfi, tam məxfi, xidməti istifadə üçün və sair məlumatlarla işləməyə buraxılan şəxslərin siyahısı mütəmadi olaraq yenilənir. Müharibə şəraitinə hazırlığa gəlincə, bunların hamısı o tələblərə daxil olan məsələlərdəndir - yəni tam məxfi, məxfi, xidməti istifadə üçün olan məlumatla kimlər işləyə bilər orada göstərilir. Tələblərin yenilənməsi müharibə şəraitinə hazırlıq zamanı da ola bilər. Əgər müharibə vəziyyəti yaransa, bu vəziyyətə uyğunlaşma da olacaq. Televiziyalardan şou verilişlərin, konsertlərin yığışdırılmasından tutmuş vətəndaşların özlərini necə aparması qaydaları da müəyyən olunur. Bu gün belə bir hal yoxdur. Yəni münaqişə şəraitidir. Hələ ki biz Ermənistan tərəfindən işğal olunan torpaqlarımızı dinc yolla almağa çalışırıq. Müharibəyə hazırlıq həm də qanunların daha da sərtləşdirilməsidir".

**Sözügedən tələblərin sərtləşdirilməsi müharibə hazırlıqları çərçivəsində atılan addım deyil ki?**

**A.Nağıyev suala belə cavab verdi:** "İnanmıram ki, 100 faiz bununla bağlıdır. Amma ümumilikdə ola bilər. Artıq hərbi sahədə, digər sahələrdə yeni texnika və texnologiyaların tətbiqi ilə bağlı tələblər yenilənə bilər".

❑ E.MƏMMƏDƏLİYEV



# Beynəlxalq Banka maliyyə nazirinin adamı rəhbər gətirilir

## Sədr seçiləcəyi gözlənilən Elmar Məmmədovun baş bankirə qarşı olduğu bildirilir...

**Azərbaycan Beynəlxalq Bankının İdarə Heyəti üzvlərinin səlahiyyət müddəti iyulun 22-də bitir. "Azərbaycan Beynəlxalq Bankı" ASC-nin Müşahidə Şurasının iyulun 3-də keçirilən iclasında bankın idarə heyəti üzvlərinin səlahiyyət müddəti uzadılmışdı. Müşahidə Şurasının qəbul etdiyi qərara əsasən, səlahiyyət müddəti 22 iyula qədər uzadılıb.**

İyulun 22-də bankın idarə heyətinə yeni sədr seçiləcəyi gözlənilir. Məlumatlı mənbənin verdiyi xəbərə görə, Elmar Məmmədov idarə heyətinin sədri vəzifəsinə gətirilir. O, "Kapital Bank"ın keçmiş və "Azər-Türk Bank"ın indiki rəhbəridir. İddialılar arasında onun adı daha çox çəkilir.

Elmar Məmməd oğlu Məmmədovun rəhbər olması Beynəlxalq Bankda maliyyə naziri Samir Şərifovun mövqelərinin möhkəmlənməsi kimi qiymətləndirilir. Onun Maliyyə Nazirliyinin kadrı olduğu vurğulanır. Həmçinin qeyd edilir ki, Elmar Məmmədov sədr olacağı halda, baş bankir Elman Rüstəmov uduzacaq. Çünki o, Məmməd Musayevi Beynəlxalq Banka sədr gətirmək istəyirdi. Elmar Məmmədovun baş bankirə qarşı olduğu da bildirilir...

Qeyd edək ki, Elmar Məmmədov 1967-ci ildə anadan olub. 1991-ci ildə Azərbaycan Xalq Təsərrüfatı İnstitutunu maliyyə və kredit, 1994-cü ildə isə Bakı Dövlət Universitetini hüquqşünas ixtisası üzrə bitirib. 1995-2004-cü illərdə Azərbaycan Beynəlxalq Bankının Əməliyyat idarəsinin rəisi, bankın Səbayel filialının müdiri olub. 2004-cü ilin noyabrından "Kapital Bank" ASC-nin Kreditləşmə və layihələrin maliyyələşdirilməsi departamentinin direktoru, həmin ilin dekabrından bankın İdarə Heyəti sədrinin müavini, 2005-ci ilin dekabrından isə İdarə Heyəti sədrinin birinci müavini vəzifələrində çalışıb. "Kapital Bank" ASC Müşahidə Şurasının 05 iyun 2009-cu il tarixli qərarına əsasən, "Kapital Bank" ASC İdarə Heyətinin sədri vəzifəsinə təyin edilmişdir. 2014-cü ildə isə "Azər-Türk Bank" ASC-nin səhmdarlarının ümumi yığıncağında bankın İdarə Heyətinin sədri seçilib.

Qeyd edək ki, axar.az -a daxil olan qeyri-rəsmi məlumata görə, iyulun 20-də "Azər-Türk Bank" ASC-nin sədri Elmar Məmməd oğlu Məmmədov Azərbaycan Beynəlxalq Bankının sədri seçilib.

Qeyd edək ki, Cahangir Hacıyev bu il martın 18-də səhhəti ilə əlaqədar işdən uzaqlaşması barədə ərizə vermiş və bankın Müşahidə Şurası istəyi təmin etmişdi. Sədr müavini Emil Mustafayev indiyə qədər sədri əvəz edirdi.

❑ RÖYA

# Kərəm Həsənovun biznesmen qardaşının mandatı geri alınır

## "AZİNKO-Holdinq"in prezidenti olan Malik Həsənovun adı Beynəlxalq Bank qalmaqalına da qarışıb

**Əmlak Məsələləri Dövlət Komitəsinin sədri Kərəm Həsənovun qardaşı, "AZİNKO-Holdinq"in prezidenti Malik Həsənov bu ilin noyabrında keçiriləcək parlament seçkilərində deputat mandatını təhvil verməli olacaq. Xəbərlərə görə, YAP 67 saylı Cəlilabad şəhər seçki dairəsindən çox tanınmış bir şəxsin deputat mandatı almasını istəyir.**

Qeyd edək ki, Yeni Azərbaycan Partiyasının siyahısından seçilən, təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin üzvü olan M.Həsənov parlamentdə olduğu 5 il müddətində bir dəfə də olsun danışmayıb və onu hətta parlament jurnalistləri belə tanımırlar.

Məlumdur ki, hakimiyyət parlamentdə passiv deputatların siyahısını hazırlayıb ki, onların sırasında komitə sədrinin qardaşının adı "birincilər" sırasında var.

Məlumata görə, M.Həsənovun adı Beynəlxalq Bank işinə də qarışıb. Belə ki, Həsənovların xalası oğlu Xalis Bağırovun uzun müddət rəhbərlik etdiyi Beynəlxalq Bankın Cəlilabad filialında da maliyyə yoxlamaları ciddi qüsurlar aşkar edib. Bir məlumata görə, X.Abbasovun rəhbəri olduğu filialda təkcə komitə sədrinin deyil, həmçinin Malik Həsənov və Cəlilabadın icra başçısı Əziz Əzizovun da çirkli pullarının "yuyulması" faktı üzə çıxıb. Maraqlı məqamlardan biri də odur ki, Beynəlxalq Bankın Cəlilabad filialı ilboyu bircə dəfə belə istehlak krediti verməyib. Bu filialı yaratmaqla komitə sədrinin biznesinə rəhbərlik edən deputat qardaşı toplanan pulları xaricə rahat transfer etmək niyyəti güdüb. Bütün maliyyə əməliyyatları da bu filial vasitəsilə həyata keçirilib. K.Həsənova aid olduğu deyilən "Baku Mall" *(keçmiş "Qələbə" kinoteatrının yerində tikilib)* ticarət mərkəzindən əldə olunan gəlirlərin də məhz sözügedən bankın filialı vasitəsilə reallaşdırıldığı iddia edilir.



Yeri gəlmişkən, Beynəlxalq Bankdan kredit götürüb qaytarmayan oliqarxların bəzilərinin əmlakları barədə bütün məlumatları hakimiyyətə K.Həsənovun rəhbərlik etdiyi komitə verib. Bu səbəbdən də K.Həsənov özünə xeyli düşmən də qazanıb. İndi onun deputat qardaşına yenidən mandat verilməyəcəyi xəbəri onun rəqiblərinin hərəkətə keçdiyini göstərir.

❑ Xəbər xidməti



# Kredit dərvişi

Zamin HACI
zaminhaci@gmail.com

"Qaçmağa xüsusi tələsmək lazım deyil. İndi onun əlində hər iki istiqamətə bilet: təmiz blank var və o özü istədiyi gediş vaxtını, təyinat məntəqəsini ora yazıb doldura bilər. Həm də o, özünün su yığmaq üçün qurğusu haqda danışmaqdan ötrü ölür. Kəndlilər isə onu tapa bilməyəcəklər. Bu gün olmasın, sabah olsun, o, kiməsə hər şeyi danışacaq. Qaçışa gələndə, bu haqda düşünməyə hələ vaxt olacaq"

**(Kobo Abe, "Qumluqdakı qadın")**

**Çox maraqlı ölkədə yaşayırıq. Misal üçün, mən bugünlərdə təsadüfən AzTV-yə yarım saatdan artıq baxdım, artıq Almaniyanın darmadağın olmasına şübhəm qalmadı. Mükəmməl zombiləşdirmə qurğusudur. Təsəvvür edin, cəmi yarım saat ərzində İbrahim Məmmədov adlı aparıcı prezidentin müşavirəsini şərh edərək bütün dərmanların qiymətini 3 dəfə ucuzlaşdırdı, gürcüləri Bakıya gətirib AZAL-ın uçaqlarına mindirdi, bütün evsizlərə faizsiz ipoteka təşkil elədi, iqtisadi artımı harasa qaldırdı, Ermənistanı uçuruma endirib məhv elədi, lap axırda isə gördü bir az efir vaxtı qalıb, həmin vaxtdan səmərəli yararlanaraq Mərkəzi Bankın sədri Elman Rüstəmovun başına tük əkdi.**

Mən başa düşdüm ki, əgər iki-üç gün ardıcıl olaraq AzTV-yə baxsam YAP-a üzv yazılaram. Yalanı bu dərəcədə səmimi danışmaq qabiliyyəti yəqin tarixən heç kəsdə olmamışdır.

Uca millətimizin kredit problemlərinə görə intiharlarından sonra yeni bir bəla gəlir. Adamlar dəli olub çöllərə düşürlər. Əsl roman(tik) hadisələr baş verir. Yüngülvari istedadı olan yazıçı bu hadisələrin əsasında dünya ədəbiyyatı səviyyəsində romanlar qayıra bilər. Amma harda... Bizim yazıçılar heç Təhminəni ərə verə bilmədilər. Misal üçün, bu həftə Salyandan ekzotik xəbər alındı. Orda bir kənd poçtunun müdiri 47 gün imiş yoxa çıxıbmış. Onun axtarışlarına qohum-əqrəba, polis qüvvələri cəlb edilibmiş. Nəhayət, adam yaşadığı yerdən təxminən 200 kilometr aralıda - Şabranın Qalaaltı kurortu yaxınlığında, meşədə anlaqsız durumda tapılmışdır. Psixikası pozulduğu üçün adam bu müddətdə neylədiyi haqda suallara cavab verməyib.

Bəs niyə bu insan havalanıb? Sən demə, onun banklara 30 min dollardan artıq kredit borcu var imiş! O məşhur klassik beyti bir az dəyişib belə yazmaq olar: "Müdir kredit əlindən dağa çıxdı, Dedilər bəxtəvər yaylağa çıxdı".

Burda daha bir ədəbi-bədii haşiyə çıxaraq qeyd edim ki, bankların əhalidən kreditləri yığmaq üçün çətinlikləri elə miqyas alıb, indi onlar hətta "kollektor" adlanan reket dəstələri düzəldirlər. Həmin dəstə üzvləri kredit borcu yaranan şəxslərə *(deyilənə görə, bəzən borcu olmayanlara da!)* hədə-qorxu gələrək pulları geri istəyirlər. Sanki bizim "Yeddi oğul istərəm", həmçinin "Əla yeddilik" Hollivud filmlərində kəndlilərin quldurlardan qorunmaq üçün döyüşçüləri kəndə çağırması hadisəsidir. Bir az süjet tərsəməzhəb düşübdür, bankirlər kəndli rolundadır.

Poçt müdirinin əhvalatına qayıtsaq, əlbəttə, yenə klassik azərbaycanlı məntiqiylə "yəqin pulu verməmək üçün özünü dəliliyə vurub" düşünmək olar, elə biz də düşünürük. Amma özünü dəliliyə vurmaqla bu ölkədə canını qurtarmaq çətindir, çünki özünü dəliliyə vuranların sayı özünü ağıllı aparanların sayından onsuz da çoxdur. Bu baxımdan, poçt müdirini bankotdelə aparıb dilini açmaq lazımdır. Qoy o, 47 günlük macəralarını bizə nəql eləsin, biz də bunun əsasında təzə bir "Poçt qutusu" şedevri yaradaq.

Yevlaxdakı olay isə demokratiya tariximizə düşə bilər. Orda bir kənd sakini bütün suyu öz sahəsinə axıdır, başqa kəndlilərin əkinlərinə su buraxmırmış. Sakinlər kəndin bələdiyyə sədrinə şikayətə gediblər, sədr həm də o suyun qabağını kəsənin əmisi oğlu imiş. Uzun sözün qısası, sədr gəlib sahəyə, əlində də tüfəng. *(Bu yerdə mən lap Oruellin "Filin öldürülməsi" essesini xatırladım).* Və əmisi oğlunu tüfənglə vurub öldürüb! İndi əhali rəhmətliyin qanı axan sahələrdə pomidor-xiyarı asudə becərirlər. Polis isə xalqın yolunda doğmalarına belə qıymaqdan çəkinməyən bələdiyyə sədrini tutub zindana salıbdır.

Təəssüf ki, AzTV-də bu hadisələrin heç bir işıqlandırılmadı.

## ABŞ daxili siyasətlə bağlı tələblərindən geri çəkilir



# Bakı ilə Vaşinqton arasında sensasion razılaşma

## Ötən həftə Bakıda keçirilən məxfi toplantıda Amerikadan münasibətlərin tənzimlənməsi üçün nələr istənilib?; Azərbaycanın Şanxay Əməkdaşlıq Təşkilatına üzv olacağı ilə bağlı proseslər Vaşinqtonu narahat edib; **ABŞ səfiri:** "Birgə komissiya məsələsi çözülür"...

**Ötən həftənin ən mühüm siyasi hadisəsi Azərbaycanla ABŞ arasında münasibətlərin yenidən istiləşməsi barədə xəbərlər oldu. ABŞ Dövlət Departamentinin beynəlxalq enerji məsələləri üzrə xüsusi elçisi və əlaqələndiricisi Amos Hokştaynın iyulun 12-də Bakıya səfəri və prezident İlham Əliyevlə görüşündə əldə edilən razılaşmalar Vaşinqtonla rəsmi Bakı arasında münasibətlərin yeni mərhələsi kimi qiymətləndirilir.**

Bu görüşün təfərrüatları barədə ilk yazan "Yeni Müsavat" qəzetinin xəbərində deyilirdi ki, hakimiyyət "ölkədaxili siyasətə aid olmayan bütün mövzularda" amerikalılarla müzakirələrə hazır olduğunu və əlaqələrin əvvəlki məcraya qayıtmasında maraqlı olduğunu bəyan edib. Bu görüşdən sonra Hokştayn ABŞ-la Azərbaycanın strateji tərəfdaş olduğunu bir neçə dəfə xüsusilə vurğuladı.

Hokştaynın Bakıdakı təmaslarından bir gün sonra Azərbaycan Silahlı Qüvvələrinin Baş Qərargah rəisi general-polkovnik Nəcməddin Sadıqov ABŞ-ın Azərbaycandakı hərbi attaşesini Müdafiə Nazirliyinə dəvət edərək onunla görüşdü. Görüşün nəticəsi ilə bağlı yayılan açıqlamada bildirilirdi ki, Azərbaycan Müdafiə Nazirliyi Pentaqon və NATO ilə hərbi əməkdaşlığın davam etdirilməsinə, hərbi qurumlar arasında etibarın tam bərpa olunmasına hazırdır. O cümlədən Azərbaycanın NATO-nun etibarlı tərəfdaşı kimi Əfqanıstanda ona həvalə olunmuş missiyanı uğurla yerinə yetirdiyi vurğulandı.

ABŞ-ı, xüsusilə Ağ Ev sahibi Barak Obamanı aylardır kəskin tənqid edən rəsmi dövlət siyasətinin ifadəçisi olan "Azərbaycan" qəzeti də "Azərbaycan ABŞ-ın barışıq jestinə "hə" deyir, amma..." sərlövhəli geniş məqalə ilə çıxış etdi. Məqalə Vaşinqtonun, nəhayət, "Azərbaycanın uğurlu daxili və xarici siyasət nəticəsində milli çərçivədən çıxaraq regional və beynəlxalq arenada öz mövqeyi ilə seçilən ölkəyə çevrildiyini qəbul etməyə hazır olduğu" tezisi üzərində qurulmuşdu.

Azərbaycan-ABŞ münasibətlərində yeni bir səhifənin başlandığını Amerikanın Bakıdakı səfirinin açıqlaması da təsdiq edir. Səfir Robert Sekuta "Amerikanın səsi" radiosuna müsahibəsində dövlət katibinin köməkçisi Viktoriya Nulandın Bakıya səfərində Azərbaycan-Amerika birgə komissiyası ilə bağlı razılaşmaya toxunub: "Əslində biz demokratiya sahəsində yaradılacaq komissiyanın barəsində danışırıq. Hazırda bu məsələnin icrası gedir. Bu məsələ çözülmək istiqamətindədir, danışıqlar gedir. Xanım Nulandın özü Azərbaycanın yüksək rütbəli hökumət nümayəndələri ilə əlaqədə olub, eyni zamanda biz də danışıqlar aparırıq. Bu kümü mühüm olan böyük təşəbbüslərə kifayət qədər hazırlıq işləri tələb olunur və hazırda bu məsələdə inkişaf var" deyə, səfir vurğulayıb.

"Yeni Müsavat"ın Qərb mənbələrindən əldə etdiyi sensasion məlumata görə, ötən həftəsonu Bakıda ABŞ rəsmiləri ilə iqtidar arasında mətbuata açıqlanmayan daha bir görüş olub. Görüşdə amerikalılar "soyuq müharibədən" öncəki status-kvonun bərpasına döndüklərini bildiriblər.

İddiaya görə, amerikalıların geriyə addım atmasının əsas səbəblərindən biri Azərbaycan iqtidarının Vaşinqtonla hərbi əməkdaşlığı dayandıracağına dair verdiyi anons olub. Vaşinqtona ən yüksək səviyyədə bildirilib ki, NATO çərçivəsindəki bütün növ əməkdaşlıqlardan, o cümlədən Azərbaycanın məhdud silahlı kontingentinin Əfqanıstanda iştirakından imtina oluna bilər. Amerika məsələnin nə dərəcədə ciddi olduğunu və bu cür davam edərsə, Azərbaycanın yöndəyişdirməyə qərarlılığını anlayıb. Hətta mümkündür ki, Amerika ilə münasibətlərdə belə bir dönüşün ola biləcəyini Silahlı Qüvvələrinin Baş Qərargah rəisi general-polkovnik Nəcməddin Sadıqov ABŞ-ın Azərbaycandakı hərbi attaşesini qəbul edərkən Azərbaycan dövləti adına söyləyib. Mətbuata verilən informasiyanın təhlili də göstərir ki, orada görüş ikitərəfli hərbi əməkdaşlığa dair icmal vermək üçün təşkil olunmayıb...

Azərbaycan iqtidarı hesab edir ki, Avropa Birliyini, ATƏT və AŞ PA-nı, eləcə də Almaniya bundestaqını da rəsmi Bakıya qarşı qaldıran ABŞ-dır. Rəsmi Bakı iddia edir ki, Avropanın əksər dövlətləri və iqtidarları ilə dost münasibətləri olduğu halda, "Qoca qitə"dəki beynəlxalq xarakterli qurumların Azərbaycan iqtidarına qarşı sərt münasibətində Vaşinqtondakı dairələrin barmağı var. Bütün bunlar ötən həftə Bakıdakı mətbuata açıqlanmayan məxfi toplantıda da dilə gətirilib. **"Amerikadan münasibətlərin tənzimlənməsi üçün tələb aksentinin yığışdırılması, iqtidarı devirmək cəhdləri kimi avantüralara son verilməsi, müxalifətin gizli dəstəklənməsi prosesinin durdurulması və siyasi dustaqları azad edilməsi tələbindən vaz keçilməsi istənilib. Rəsmi Bakı bunun qarşılığında əvvəlki əməkdaşlıq səviyyəsini bərpa etməyə, siyasi dustaqlara münasibətdə "humanist və adil"** davranmağa söz verib" deyə, mənbə bildirib.

Mənbə iddia edir ki, ABŞ rəsmiləri ilə Bakıdakı məxfi görüşün təsadüf etdiyi ərəfə də maraq doğurur. Belə ki, ötən həftə Azərbaycanın Şanxay Əməkdaşlıq Təşkilatına müşahideçi statusunda üzv olacağı ilə bağlı xəbərlər yayılıb. Rusiya və Çinin liderlik etdiyi bu təşkilat qeyri-rəsmi olaraq "ABŞ-ın əleyhinə olan qurum" kimi tanınır. Azərbaycanın perspektivdə bu təşkilata üzvlüyü əlbəttə ki, Vaşinqtonun planlarına tam ziddir.

Vaşinqton-Bakı münasibətlərində gərginlik şübhəsiz ki, ABŞ-ın Cənubi Qafqaz siyasətini zədələyir. Təsadüfi deyil ki, hələ bir neçə ay əvvəl nüfuzlu ABŞ konqresmenləri Barak Obamaya müraciətində Azərbaycanın strateji ölkə olduğunu və Bakı ilə münasibətlərin Vaşinqton üçün xüsusi önəmini vurğulamışdılar. Belə bir vurğunu ABŞ-ın Azərbaycandakı sabiq səfiri Metyu Brayza da ötən həftədəki açıqlamasında ifadə etmişdi. Amerikanın Azərbaycan hakimiyyəti ilə münasibətlərinin gərginləşməsi Kremlin Bakıya yollarını daha da hamarlaşdırıb. ABŞ anlayır ki, hazırkı perspektivdə Azərbaycan hakimiyyəti ilə əməkdaşlığın çevrəsini müəyyən edib danışıqlar masasına oturmaq daha vacibdir. Mənbəmiz deyir ki, Amerika "...iki qadına görə Azərbaycanla münasibətləri tamamilə korlamayacaq və artıq ciddi dəyişikliklər var".

**"Azərbaycan elə bir strateji əhəmiyyətə malik ölkədir ki, ABŞ oradan əlini götürsə, başqa bir "əl" tapılacaq ki, həmin yeri tutsun. Bunu amerikalılar da gözəl bilirlər. Azərbaycanın "Şanxay gedişi" bu bilgiləri təzələmiş oldu"**, deyə mənbəmiz vurğulayıb.

❑ **"Yeni Müsavat"**

# Bakı-Supsa avantürasının qorxulu pərdəarxası

**Rusiya hərbçilərinin hər hansı ölkənin ərazisində olmasının statusundan asılı olmayaraq, nə demək olduğu Gürcüstanın işğal edilmiş Cənubi Osetiya timsalında bir daha aydın şəkildə ortaya qoyuldu. Bəlli olduğu kimi, bu bölgədə rus hərbçiləri Kremlin göstərişi ilə işğal xəttini hər ay yavaş-yavaş Gürcüstan ərazisinin içərisinə çəkməsilə bp-nin operatoru olduğu Bakı-Tiflis-Supsa neft kəmərinin bir hissəsi faktiki, Moskvanın nəzarətinə keçib.**



# Gürcüstandan Azərbaycana yeni Rusiya hədəsi - ilginc gəlişmə

## Regionun iki işğalçı ölkəsinin - Rusiya və Ermənistanın eyni vaxtda Gürcüstanın içərilərinə doğru irəliləməsi ən əvvəl Bakıya təhdiddir; Qərbin maraqlarının da hədəf aldığı son olaylara beynəlxalq birlik, nəhayət, adekvat reaksiya verəcəkmi?



Rusiyanın beynəlxalq hüquqa növbəti meydan oxumaq nümunəsi olan bu hərəkətinə sözsüz ki, ilk növbədə BMT, ATƏT, Avropa Şurası kimi nüfuzlu beynəlxalq təşkilatlar, həmçinin Gürcüstanın assosiativ üzv olduğu Avropa Birliyi, qonşu ölkəni NATO-dan kənar müttəfiq elan eləmiş ABŞ və bp (İngiltərə) layiqli qiymət verməlidir.

Diqqət edin, Moskva guya Cənubi Osetiyanı müstəqil dövlət kimi tanıyıb. Amma bu, azmış kimi, bu marionet "müstəqil" dövlətin ərazisini öz kefi istədiyi kimi böyüdür - Gürcüstanın yerdə qalan torpaqları hesabına. Harada, hansı qanunda yazılıb bu, görəsən?

Təbii ki, osetinlər burada "peşka" rolundadırlar. Məlumatlara görə, Moskva təkcə neft kəmərini hədəf götürməyib, məqsəd həm də Gürcüstanın qərbi ilə şərqini birləşdirən avtomobil yolunu nəzarətə götürməklə Gürcüstanın dövlətçiliyini daha ciddi şəkildə təhdid eləməkdir.

***

Tam məntiqli olaraq da Gürcüstan ictimaiyyəti buna etiraz eləmək üçün artıq ayağa qalxıb, küçə-meydanlara axışıb. Gürcüstan müdafiə naziri Tina Xidaşelinin sözlərinə görə, Rusiya daima onun ölkəsinin səbrini sınağa çəkir və bu kimi addımlarla Gürcüstanı təxribata cəlb eləmək istəyir. Sitat: **"Rusiya tərəfi gündəlik olaraq bizim səbrimizi yoxlayır. Onlar Gürcüstanı provokasiyaya cəlb edərək, müharibəyə qatmaq istəyirlər. Amma biz buna getməyəcəyik".**

Maraqlıdır ki, o yandan da işğalçı Ermənistan öz ağası Rusiyanın aşkar anneksiya siyasətindən ruhlanaraq həmsərhəd ərazidə Gürcüstana məxsus 10 hektar ərazini zəbt edib. Beləcə, regionun bu iki işğalçı ölkəsi regionun normal inkişafı yolunda əsas maneə olaraq qalır. Aydındır ki, beynəlxalq birlik ABŞ və NATO vasitəsilə onların cilovunu yığmayınca regionda heç vaxt əmin-amanlıq olmayacaq. Əfsus ki, dünya birliyi Avropa və ABŞ Ermənistana da Rusiya kimi işğalçı kimi baxmır. İkili standart? Əlbəttə ki.

***

Rusiyanın heç bir beynəlxalq hüquq normalarına, BMT nizamnaməsinə sığmayan son hərəkətləri isə bilavasitə Azərbaycana və Qərbə, sonuncunun regiondakı maraqlarına təhdiddir, Gürcüstanı demokratiya yolundan sapdırmağa vadar edib, ardınca bütövlükdə Güney Qafqazı öz hərbi-siyasi nəzarətinə qaytarmaqdır.

Eyni zamanda son vaxtlar Donbasda situasiyanın gərginləşməsi ilə bağlı Qərbə, ABŞ-a bir təhdiddir. Ki, Ukraynada Kremlin maraqları ciddiyə alınmazsa, dünya Krımın ilhaqı ilə barışmazsa, Kreml postsovet məkanının başqa bir konfliktli zonasında situasiyanı kəskinləşdirə bilər.

Azərbaycan isə konkret faktı hesaba alıb da, bir daha əmin olmalıdır ki, heç bir halda və heç vaxt Rusiya hərbi kontingentinin Dağlıq Qarabağda yerləşdirilməsinə razılıq verməməlidir. Çünki harada rus əsgəri var orada qan-qada, başıpozuqluq, xaos, qurbanlar var. Normal, dinc inkişaf və tərəqqi isə yoxdur...

***

Kremlin Bakı-Supsa avantürası ilə əslində ilk növbədə Azərbaycanı hədəfə almaq istədiyi barədə yazmışdıq. Belə bir ölkənin -Rusiyanın Dağlıq Qarabağ məsələsində ədalətli münsif olacağını gözləməyə dəymir təbii ki. Bunun daha bir təsdiqi odur ki, necə vaxtdır Bakı-Moskva münasibətləri heç vaxt olmadığı qədər isti bir dövrünü yaşasa da, Rusiya Qarabağ məsələsində heç bir konstruktivlik göstərmir, konstruktivlik göstərməyə hazırlaşmır. Təkcə bu fakt öz-özlüyündə çox şeyi deyir və Moskvanın əsl niyyətlərinə işıq salır. Niyyət faktiki, heç bir qarşılıqlı və ciddi güzəşt edilmədən Azərbaycanı özünün orbitinə gətirməkdir.

***

Rusların yeni Gürcüstan avantürasının daha bir pərdəarxasını NATO Əməkdaşlıq İnstitutunun rəhbəri Fərrux Məmmədovun açıqlamasından görmək olar. O da əmindir ki, Kreml Bakıya nəzarətini qaytarmaq istəyir, çünki Rusiya üçün Cənubi Qafqazda ən önəmli ölkə daima Azərbaycan olub və ölkəmiz üzərində nəzarət bütöv regiona nəzarət deməkdir (axar.az): **"Buna səbəb isə ölkəmizin yerləşdiyi coğrafi mövqe və təbii sərvətlərdir. Rusiya bu dövlətə sahib olarsa, demək olar ki, nəinki Cənubi Qafqaz, həmçinin Asiya ölkələri üzərində nəzarətini daha da artırmış olacaq. İran danışıqlarının nəticəsinin də Moskva üçün arzulanmaz olması onu Bakı üzərində nəzarəti artırmağa vadar edəcək. Rusiya yaxşı anlayır ki, İranın dünya iqtisadi siyasətindəki rolu artarsa, bu, sabah Rusiya üçün böyük bir problemə çevriləcək. Ona görə də Kreml istəyir ki, Azərbaycanda mövcudluğunu tam şəkildə bərpa etsin. Doğrudur, Moskvanın Bakıya təsir imkanları var, amma o tam güclü şəkildə deyil. Bugünkü siyasət də məhz buna doğru yönəlib. Bu, çox həssas bir prosesdir və bu məsələlərdə bütün mövcud dövlət təhlükəsizlik orqanlarının koordinasiyalı şəkildə işləməsi vacibdir. Əks halda, hər an Rusiyanın siyasi təzyiqi və manevri ilə üzləşə bilərik. Unutmaq lazım deyil ki, Rusiya bizdən daha çox məlumata və gücə sahibdir. Bu gücə qalib gəlməyin və dövlətin təhlükəsizliyinin qorunmasının bir yolu var - o da beynəlxalq güclərlə bərabər addımlar atmaq. Qərb və Avropa ilə əlaqələrin yenidən möhkəmləndirilməsi sabahkı Rusiya təhlükəsinin qarşısını tam şəkildə ala biləcək".**

Söhbət əlbəttə ki, həm də Qarabağ məsələsinin ədalətli həllindən gedir. Rusiya ilə bu, mümkün görünmür artıq.

❑ **Siyasət şöbəsi**

# İranla saziş Azərbaycana nə vəd etdi?



**Hüseynbala SƏLİMOV**

**Bəli, ötən həftə qonşu İranda böyük qələbəlik yaşandı. Bir neçə gündür ki, nüvə razılaşmasının eyforiyası bir az səngiyib. Bəlkə də hələ kiməsə İranla nüvə razılaşmasının əhəmiyyəti yetərincə inandırıcı görünmür. Bəlkə kimsə fikirləşir ki, daha bir ölkə nüvə ölkəsi olsaydı nə olacaqdı, dünya məhvərindən qopacaqdım? Bəlkə kimsə belə fikirləşir ki, dünyada İrandan da kiçik dövlətlərin nüvə silahı olduğu halda bu silah İranda niyə olmasın?**

Təbii ki, bütün suallara tükəndirici cavab vermək elə də asan deyil. Amma düşünürük ki, İranla əldə edilmiş saziş böyük əhəmiyyət kəsb edir. Ona görə ki, bu dövlətin nüvə ölkəsi olmağın məntiqini və məsuliyyətini nə qədər dərk etməsi o qədər də aydın deyildi...

Dünyanın yazılmamış qanunlarından biri də budur ki, nüvə silahına malik olmaq dövlətlərə imtiyazdan daha çox məsuliyyət verir. Hətta nüvə silahı olan dövlətləri xüsusi adla-"məsul dövlət" (responsiblity state!) adı ilə çağırırlar...

Demirik ki, bizim arqumentlərimiz bir az əvvəldə səslənən suallara tamamilə cavab vermək iqtidarındadır. Amma bir daha deyirik ki, təəssüf ki, heç də bütün dövlətlər dünyanı özlərinin digər dövlətlər üçün təhlükəsiz olduqlarına inandıra bilməyiblər. Belə dövlətlərdən biri də İrandır...

Ona görə də İsrail siyasətçilərinin narahatlığında bir məntiq var. Onlar belə bir detala diqqət yetirirlər ki, 12 il davam edən danışıqlara və bu danışıqlarda bir sıra uğurların əldə olunmasına baxmayaraq İran özünün ABŞ-a və İsrailə qarşı yönələn qəzəbli ritorikasına ara vermir, bu ölkədə hələ də ABŞ və İsraillə bağlı fobiya yaşanır...

Düşünürük ki, bu, bir növ İrandakı indiki siyasi sistemin mövcudluq formasıdır. Əgər ABŞ-a və Qərbə qarşı yönələn ritorika olmasa bu ölkələrin söykəndiyi dəyərlər İrana da yol tapar. Bu isə İrandakı indiki siyasi sistemin ən azı laxlaması demək olar...

Əvvəldə dedik ki, bayram eyforiyası artıq bir az səngiyib. İndi biz bir sual üzərində düşünməliyik. Həmin razılaşma Azərbaycana nə vəd edir? Düşünürük ki, bu razılaşma Azərbaycan diplomatiyasını və siyasətini izafi şərtlərdən xilas edir. Bu vaxta qədər Qərb də, İran da Azərbaycanı öz yanında görmək istəyirdi. İran Azərbaycanın Qərblə münasibətlərini, Qərb də onun İranla münasibətlərini öz maraqlarına uyğun şəkildə tənzimləməyə və bir növ bu münasibətləri öz geosiyasi maraqlarına tabe etməyə çalışırdı...

İndi daha bu, olmayacaq. Təbii ki, belə bir hal Azərbaycana daha çox sərbəstlik verəcək və ona hər iki siyasi tərəflə münasibətlərini dərinləşdirməkdə yardımçı olacaq. Daha bundan sonra azərbaycanlı məmurlar gileylənməyəcək ki, İran bizi dostları ilə dost, düşmənləri ilə düşmən görmək istəyir...

Qərblə İranın münasibətlərinin yoluna qoyulması başqa nüanslarla da zəngin hesab edilə bilər. Qərb İranın timsalında güclü neft və qaz partnyoru əldə edir.

Azərbaycanla İran bu mənada rəqibdirlər. Düzdür, razılaşmanın hələ mürəkkəbi qurumayıb, onun detalları bəlli deyil. Amma İran yenidən dünya qaz və neft bazarına qayıtsa, bunun neft və qaz ölkəsi olan Azərbaycan üçün də müəyyən nəticələri olacaq...

Azərbaycan da Avropaya neft satır. Azərbaycan da Avropanın qaz bazarına çıxmağa cəhd edir. Amma dünyada ən böyük qaz ehtiyatları olan ölkələrdən biri də İrandır. Həm də İranın müvafiq tranzit infrastrukturu da var, ona özünün istehsal həcmlərini artırmaq və nəql imkanlarını yüksəltmək üçün heç də illər lazım deyil, İran buna tez bir zamanda nail ola bilər...

Təsadüfi deyil ki, artıq böyük neft şirkətləri İranla maraqlanmağa başlayıblar. Bu isə neft və qaz hasilatını artırmaq üçün əlavə investisiya imkanları deməkdir. Qərəz, İran dünya neft və qaz bazarına sıçrayış üçün hazır görünür.

Bunun bir aspekti də bu ola bilər ki, neftin və qazın qiyməti yenidən enər, bu isə Azərbaycan üçün müəyyən qədər böhran demək olar...

Təbii ki, hər məsələnin müsbət tərəfi də var, mənfi tərəfi də. Yaşamaq üçün, əmin-amanlıq üçün sözsüz ki, müsbət tərəfləri götürmək lazımdır. Ən azı ona görə regiondakı gərginlik bir az azaldı. Daha Xəzərin ətrafı bir az əvvəl olduğu kimi barıt qoxumayacaq...

Aydındır ki, bu, hələ başlanğıcdır. Tərəflər iradə göstərib razılaşmanın bütün tələblərini yerinə yetirməlidir. Bu isə elə də asan məsələ deyil. Ona görə də demək olar ki, bu, hələ böyük yolun başlanğıcıdır...

YENİ MÜSAVAT
N 156 (6184) 21 iyul 2015




# Hamar yolu şumlayanlar - Haramıdan reportaj

**Elə olmaz ki, yolum doğma yerlərə düşə və orada yeni bir anormal durumla üzləşməyəm. Hər dəfə mütləq insanları narahat edən, şikayətlənmələrinə əsas verən nəsə olur.**

**Belə görünür ki, hər yerdə belədir. Məsələn, bu gün Füzuliyə yox, Ağstafaya, Neftçalaya getsəm də, orda insanlar məmurların tətbiq etdiyi hansısa absurd "yenilik"dən, "qayda-qanun"dan şikayətçi olacaqlar.**

Ötən həftənin bazar günü Füzulidə gördüyüm mənzərə isə heç bir dəftər-kitaba sığması mümkün olmayan kateqoriyadandır.

Bilənlər bilir, Beyləqan rayonunun Daşburun qəsəbəsindən 5-6 kilometr cənub-qərbdə, tarixən Haramı adlanan düzənghda Füzuli rayonuna məxsus, əsasən bu rayondan olan məcburi köçkünlərin məskunlaşdığı Qayıdış adlı qəsəbələr silsiləsi salınıb.

Torpağın bərəkətindən, suvarma suyu ilə təminatındandır ki, qəsəbələr kurort zonalarında olduğu qədər yaşıllığa malikdir - bütün evlər iri çətirli ağacların əhatəsindədir.

Bir neçə ay öncəyə qədər qəsəbələrin yanından keçən və sonuncu Örənqala qəsəbəsinə qədər uzanan 20 kilometrlik magistral yol da ideal vəziyyətdə idi, hərdən bir sağa-sola döngələri olsa da, şüşə kimi hamardır. 11 qəsəbənin minlərlə sakini bu yoldan istifadə edərək, tezliklə Horadizə, Beyləqana, Bakıya gedə bilirdilər.

İndi durum dəyişib, Bakıdan Horadizə gələn adam gəlib çatır, Horadizdən Örənqalaya gedən adam isə hələ yol ölçür.

Çünki 3-4 ay öncə səriştəsiz olduqları qədər də məsuliyyətsiz və tamahkar olan məmurlar, daha dəqiqi, yol təsərrüfatının baş bilənləri bu şüşə kimi hamar yolu şumlayıblar, heç bir səbəb olmadan qaşıyıb-qazıyıb bərbad ediblər.

Onlar elə bir iş görüblər ki, Stalin dövründə bunu açıq sabotaj, diversiya adlandırar və səbəbkarları ən aşağısı, Sibir türmələrinə basardılar.

Gerçəkdən də yolun bərbad edilməsinə heç bir zərurət olmayıb. Bəzi hissələrdə asfalt üzərində xırım-xırda çala-çuxur yaranıbmış və onu yüngül təmirlə başa gətirmək olarmış. 3-4 ay öncə yol tikintisi və təmiri ilə məşğul olan mərkəzi idarədən buraya texnika gətirilib və guya ki, yolda təmirə başlayıblar.

Yerli sakinlər danışır ki, yolda hərəkəti çətinləşdirən bərbad hissə 300-500 metr aralığında olub, ancaq yol təmirçiləri nəyə görəsə 20 kilometrlik yolun hamısını şumlayıblar, asfalt örtüyünü qazıyıb təpələr düzəldiblər.

Əhali elə bilib ki, bu, şəhər yerlərində adi hal olan asfalt qaşınmasıdır, onu sonradan yenidən qırlayıb, bişirib yola döşəyəcəklər. Ancaq təmirçilər yolun ortasına qalaqladıqları asfaltın 90 faizini yenidən yola yayıblar. Belə edərkən onlar nə düşünüblər, bilinmir. Bəlkə elə biliblər, Haramı düzünün istisi bu asfalt parçalarını özü bişirəcək, yola yayacaq?

Onlar hər nə düşünüblər, bilinmir, ortaya çıxan mənzərə belədir: asfalt qırıqları, iri daşlar, doğranmış çınqıl parçaları yolda hərəkəti çətinləşdirib. Hələ yaxşı ki, iri yük maşınları yoldakı kələ-kötürlükləri bir az hamarlayıb, yoxsa yüngül maşınların hərəkəti heç mümkün deyilmiş.

3-4 ay əvvəl bu yolda avtomobillər saatda 90, 100, hətta 120 km sürətlə hərəkət edə bilərdilərsə, indi sürət saatda 5 km *(yəni piyada gedən adam)* həddinə düşüb.

Camaat yol təmirçilərinin nədən belə bir təsərrüfatsızlıq etdiklərinin məqsəd, məramını bilmirlər.

Hazırda hamı oturub gözləyir ki, Füzuli rayonunun yollarının abadlaşdırılmasına ayrılmış 3 milyon manatdan 1 milyonu da bu yolun bərpasına yönəldiləcək və nəhayət, 10 mindən artıq adamın işinə yarayan yol bərpa olunacaq.

İlkin hesablamalara görə, 3-4 ay öncə şüşə kimi hamar olan bu yolun bərpasına ən azı bir milyon manat vəsait lazımdır. Halbuki bu yoldakı problemləri 3-5 min manatla həll etmək olardı.

Hamar yolu şumlayıb bu hala salanları, əlbəttə ki, cəzalandıran olmayacaq. Əksinə, onlar yolu əvvəlki vəziyyətinə qaytarmaq üçün yeni layihələr təqdim edəcəklər və xeyli pul vəsaitini qamarlayıb ciblərinə qoyacaqlar.

Həmişə və hər yerdə olduğu kimi, burada da məqsəd dövlət vəsaitini mənginrləməkdir.

❑ **Xalid Kazımlı**





**Ermənistan sərhədçilərinin Gürcüstan ərazilərini zəbt etməsi xəbəri əslində yeni deyil. Bu haqda hələ iki il əvvəl "Yeni Müsavat" yazmışdı. ("Borçalıda ikinci "Qarabağ kartı" işə salınıb") O zaman Qarabağ Azadlıq Təşkilatının sədri Akif Nağı və təşkilatın bir qrup üzvü ilə bu sətirlərin müəllifi ilhaq edilmiş torpaqların lap yaxınlığınadək - azərbaycanlıların kompakt yaşadığı Xuludərə kəndinədək - gedib çıxmışdı...**

**Elşad PAŞASOY**



# Bizi Gürcüstanda gözləyən təhlükə

Gürcüstanın Rustavi-2 kanalı yalnız indi xəbər yayıb ki, bəs, Ermənistan sərhəd məntəqəsinin əməkdaşları azərbaycanlıların kompakt yaşadığı Təzəkənd kəndi yaxınlığında Gürcüstanın 10 hektar ərazisini zəbt edib. Bu proses isə illərdir gedirdi, sanki gürcü sərhədçilər bütün bunları görmürdü. Yadımdadır, hətta QAT sədri Gürcüstanda keçirdiyi görüşlərdə Ermənistandakı rus əsgərlərinin Gürcüstanın içərisinə doğru irəlilədiyi barədə xəbərdarlıq etsə də, gürcülər bundan xəbərsiz olduqlarını deyirdilər, bu barədə hökuməti, parlamenti məlumatlandıracaqlarına söz verirdilər. Lakin bu müddətdə rəsmi Tiflisdən heç bir reaksiya görə bilmədik.

O zaman Borçalıdakı soydaşlarımız, həmçinin azərbaycanlı deputatlar, vətəndaş cəmiyyətinin nümayəndələri and-aman edib deyirdilər ki, Tiflis hər şeydən məlumatlıdır, sadəcə, bölgədə azərbaycanlılar yaşadığı üçün məsələyə biganəlik göstərir. Üstəlik, torpaqları zəbt edənlərin əslində "erməni" adı altında Rusiya hərbçilərinin olduğunu gözəl bildiyi üçün ehtiyatlı davranır. Nəticəsi də belə: Azərbaycanlıların kəndi olan Xuludərə məktəbinin əkin sahəsində rus hərbçiləri kazarma tikiblər. Üstəlik, "neytral" zona da elan olunub, əraziyə insan, heyvan, nə daxil olursa, tutub Ermənistana aparırlar. Vəziyyət çoxdan belədir. "Rustavi-2" kanalı isə yalnız bugünlərdə məsələni ictimailəşdirdi. Görünür, bu, gürcü hökumətinin özünə lazımdır.

Məsələ burasındadır ki, Gürcüstanın Rusiya tərəfindən tam işğal olunması təhlükəsi yaranıb. Rus hərbçiləri mövqelərini Bakı-Supsa neft kəmərinin 50 metrliyinədək irəli çəkib. Bu səbəbdən Tiflisin mərkəzində anti-Rusiya aksiyaları başlayıb. İndi Gürcüstanın digər istiqamətdən də müdaxiləyə məruz qaldığı barədə məlumatı ictimailəşdirməklə beynəlxalq diqqəti daha çox cəlb etmək istəyirlər. Hansı ki, "Yeni Müsavat"ın yazdığını şübhə yoxdur ki, Gürcüstanın Bakıdakı səfirliyi də oxumuşdu, əgər Tiflis doğrudan da bixəbər idisə, elə Bakıdan bu barədə məlumatlar ötürülə, məsələ ictimailəşdirilə bilərdi. Ancaq indi rus hərbçiləri Borçalı torpaqlarında möhkəmləndiyi halda onları geri qaytarmaq sadəcə mümkünsüzdür.

O zaman rəsmi Tiflis bu təhlükəni ictimailəşdirməkdə böyük rol oynayanlara təşəkkür etmək əvəzinə, Akif Nağını "persona non-qrat" elan etdi. Gürcüstanı erməni-rus təhlükəsindən xəbərdar edən Azərbaycan vətəndaşını, onun müavinini bu cür "mükafatlandırdılar". Düzdür, burada vaxtilə faşmiliyasını dəyişmiş, gürcüləşmiş ermənilərin rol oynadığı da iddia olunur. Lakin istənilən halda söhbət Gürcüstan dövlətindən gedir, özü də bu dövlətin ayaqda qalması üçün Azərbaycan hər şey edib və edir. 2008-ci ildə, Rusiya-Gürcüstan müharibəsi zamanı və ondan sonrakı müddətdə isə Azərbaycan bütün risklərə rəğmən qonşu ölkəyə dayaq oldu.

Əgər bunun qarşılığında Gürcüstan hətta iki ölkənin qardaşlığını təbliğ edən "Borçalı" Cəmiyyətinin sədri Zəlimxan Məmmədlinin də üzünə qapılarını qapayırsa, ona doğmalarının məzarını ziyarət imkanı vermirsə, daha bunun harası dostluq-qardaşlıq oldu? Sonuncu anormal münasibəti isə Dinamo Tbilisi - "Qəbələ" futbol matçında gördük. Gürcüstanda azərbaycanlı azarkeşi döydülər, barmağımızı ayaqlar altına atdılar, stadionda Qax, Zaqatala rayonlarına iddianın əks olunduğu lövhə qaldırdılar. Deyək ki, burda da erməni bayrağının olması mümkündür. Elə isə David Qareci kilsəsinə iddianı necə başa düşək? Borçalı ərazilərində addımbaşı hətta gecələr işıq saçan xaçlar basdırılıb, buna nə ad qoyaq? Bunlarıdamı ermənilər basdırıb? Gürcü hökuməti də yaxşı anlayır ki, bu ərazilər tarixən azərbaycanlılara məxsus olub, amma adlarını kütləvi dəyişdiriblər, pay torpaqlarını müxtəlif adlarla zəbt ediblər, xaç basdırıblar. Bu, bir dövlət siyasətidir. Bununla da Gürcüstan əslində ermənin və rus maraqlarının daşıyıcısına çevrilir. Rusiya və Ermənistan da gürcülərlə azərbaycanlıların arasında ixtilaf yaranmasını çox istəyir. Hətta Qırmızı körpü buraxılış məntəqəsinin nəzarətin ələ alınması planı var, Sadaxlıya gedən yolun üstündə Suriyadan gəlmiş ermənilər üçün qəsəbə salınması da həmin planın tərkib hissəsidir, azərbaycanlıları mühasirəyə alıb sonra didərgin salmaq istəyirlər. Rəsmi Tiflis buna niyə göz yumur?

Azərbaycan hökuməti də bütün bu məsələlərə müdaxilə etməli, soydaşlarımızın taleyini sual altına qoyan layihələrin durdurulması üçün hər cür imkandan yararlanmalıdır. Gürcüstan Azərbaycandan aldığı qazın hesabına erməni kəndlərini qazlaşdırır, azərbaycanlıların yaşayış məskənləri isə odun yandırır.

Gürcüstan parlamentinin azərbaycanlı deputatı Əli Məmmədov deyib ki, ermənilərin azərbaycanlıların sıx yaşadığı ərazinin 10 hektar ərazisini zəbt etməsi ölkə parlamentində müzakirə ediləcək. Məmmədov da təsdiqləyib ki, ermənilərin bənzər hərəkətləri 10 ildən çoxdur davam edir, hər il onlar sərhədi 5 metr irəli çəkirlər. **"Özü də əsasən azərbaycanlıların sıx yaşadığı yerlərdə baş verir, başqa yerlərdə belə bir şey olmur",** - deyib deputat.

Rusiya Cənubi Osetiya tərəfdən də Gürcüstanın içərilərinə doğru irəliləyir, Bakı-Supsa təhlükə altındadır. Bu tərəfdən də Ermənistan əraziləri genişləndirilir. Hər iki halda Azərbaycan və azərbaycanlılar da ciddi təhlükə ilə üzləşib. Rəsmi Bakının da hərəkətə keçməsi, Tiflislə birgə vəziyyətdən çıxmaq üçün addımlar atması gərəkdir. Azərbaycan Rusiya ilə daha yaxşı münasibətlərinin olmasından istifadə edə bilər. Əgər Rusiya-Azərbaycan münasibətləri yaxşıdırsa, onda Ermənistandakı rus bazası azərbaycanlıların kompakt yaşadığı torpaqların ilhaqına son versin. Digər tərəfdən, rus əsgəri bir az da irəliləsə, neft kəmərlərimizi zəbt edəcək, Türkiyəyə aparan yeganə quru yolumuz kəsiləcək. Təhlükənin miqyası bu dərəcədə böyükdür...

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



YENİ MÜSAVAT
N 156 (6184) 21 iyul 2015

**ABŞ-ın məşhur "Bloomberg" nəşri Azərbaycanın müharibəyə hazırlaşması ilə bağlı məlumat yayandan dərhal sonra xarici işlər naziri Elmar Məmmədyarovun Moskvaya səfər etməsi suallar doğurdu. Qeyd edək ki, Azərbaycan XİN-in başçısı son ay yarımda ikinci dəfədir Rusiyaya səfər edir.**



# Azərbaycanın müharibə hazırlığı Kremli hərəkətə gətirdi

## Rusiyanın "sülhməramlılar"ını bölgəyə yerləşdirmək planı ciddi narahatlıq doğurur; həmsədrlərin bölgəyə növbəti səfəri başladı...

Budəfəki səfərin məram-məqsədi barədə hələlik detallı məlumatlar yoxdur. Lakin Rusiya xarici işlər naziri Sergey Lavrovun azərbaycanlı həmkarı ilə görüşdən sonra Qarabağ probleminin həllinin vaxtının çatdığını deməsi, həmçinin onun İrəvana - Ermənistan XİN başçısı E.Nalbəndiyana zəng etməsi uzaqgedən nəticələrin ortaya çıxmasına səbəb olub.

Müşahidəçilər hesab edir ki, Azərbaycanın son vaxtlar hərbi əməliyyatlarla bağlı ciddi hazırlıqlar həyata keçirməsi, ordudan ənənəvi tərxisin hələlik həyata keçirilməməsi, hərbi hava qüvvələrinin cəbhə xəttində genişmiqyaslı hərbi təlimlərə başlaması, müdafiə naziri Zakir Həsənovun növbəti dəfə cəbhə boyu bölgələrdə şəxsi heyətlə görüşməsi, ciddi tapşırıqlar verməsi, həmçinin nazirin düşmənin atəşinin cavabında ermənilərin sıx məskunlaşdığı məntəqələrə zərbələrin endirilməsi barədə əmri həmsədr ölkələri, o cümlədən Rusiyanı hərəkətə keçirib. Hesab olunur ki, Moskva bu səbəbdən də ABŞ-da keçirilməsi planlaşdırılan İlham Əliyev-Serj Sərkisyan görüşünü gözləmədən nazirlər səviyyəsində də olsa, təmasları davam etdirməyə, münaqişə alovunun qarşısını almağa səy göstərir.

Yeri gəlmişkən, ABŞ-ın bu nüfuzlu media qurumu da iddia edib ki, Azərbaycanın Müdafiə Nazirliyi hospitallara "hər an başlaya biləcək hərbi əməliyyatlar"a hazır olmaq barədə əmr yönəldib. Və bütün tibb müəssisələri və onların əməkdaşları Müdafiə Nazirliyindən "xüsusi təlimatlar" alıblar. ABŞ Dövlət Departamentinin rəsmisi Con Kirbi bir müddət öncə bəyan etmişdi ki, Departament Azərbaycanın hərbi tədbirləri barədə məlumatlıdır və hadisələrin inkişafını diqqətlə izləyir.

Müdafiə Nazirliyi xəbər verir ki, Azərbaycan prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin tapşırığına əsasən, müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin rəhbər heyəti cəbhə boyu rayonlarda yerləşən birlik, birləşmə və hərbi hissələrin döyüş hazırlığını yoxlayıb. Müdafiə naziri yüksək dağlıq şəraitdə, ağır və çətin relyefə malik bölgələrdə düşmənlə bilavasitə təmas xəttində döyüş növbətçiliyi aparan şəxsi heyətlə görüşüb, onların döyüş hazırlığı, təminatı, sosial-məişət şəraiti və mənəvi-psixoloji vəziyyəti ilə maraqlanıb.

**Nazir deyib:** "Prezidentin "bir həftə ərzində Ermənistanda daş daş üstündə qalmaz" fikri ən müasir silah-sursat, maddi-texniki təminata malik ordumuzun qarşıya qoyulan istənilən döyüş tapşırığını yerinə yetirmək qüdrətində olan Azərbaycan əsgərinin dünyanın güclü ordularının hərbçiləri sırasında olduğunu sübut edir. Xalqımız bilməlidir ki, düşmənə müxtəlif istiqamətlərdə zərbə endirərək böyük itkilərə məruz qoyan, əməliyyat şəraitində təşəbbüsə yiyələnən Azərbaycan əsgəri sübut etdi ki, düşməndən hər cəhətdən üstündür. Silahlı Qüvvələrimiz güc tətbiq etməklə ən əsas və müqəddəs borcunu - işğal olunmuş torpaqlarımızı düşmən tapdağından azad etməyə hazırdır. Silahlı Qüvvələrimiz gecə-gündüz təlim mərkəzlərində, səhra çıxışlarında döyüş vərdişlərini təkmilləşdirməklə bu müqəddəs günün yaxınlaşması üçün inamla çalışır. Ordumuz qısa bir müddətdə şəhidlərimizin qisasını almağa tam hazırdır".

***

Bütün bunlar zahirən müharibənin hər an başlayacağı görüntüsünü yaradır. Lakin bir sıra ekspertlər Rusiyanın vəziyyəti nəzarət altına almaq cəhdinin arxasında ayrı məqsədin dayandığını güman edir. Hesab olunur ki, Moskva əslində münaqişə tərəflərinə silah verməklə - Azərbaycana nağd pulla, Ermənistana isə kreditlə - əslində gərginliyi artırmaq və son nəticədə qısamüddətli də olsa, müharibənin başlamasına göz yummaq, ardınca isə tərəfləri zəif salıb "sülhməramlı" adı altında Dağlıq Qarabağda yerləşdirmək istəyir.

Bu ərəfədə ATƏT-in Minsk Qrupunun həmsədrlərinin bölgəyə səfər etməsi də təhlilçilər tərəfindən müxtəlif cür yozulur. Minsk Qrupunun ABŞ-dan olan həmsədri Ceyms Uorlik özünün twitter səhifəsində yazıb ki, iyulun 20-də Ermənistan prezidenti Serj Sərkisyan və xarici işlər naziri Edvard Nalbəndyanla görüşəcəklər. Həmsədrlər regiona səfərləri çərçivəsində Bakıya da gəlib Azərbaycan rəhbərliyi ilə görüşəcəklər.

**Politoloq Hikmət Hacızadə Rusiyanın Qarabağa "sülhməramlı" qüvvələr yeritməsi planının çox təhlükəli məsələ olduğunu vurğuladı:** "Mən hamını bu barədə düşünməyə və rəy bildirməyə çağırıram. Son zamanlar mətbuatdan cəbhə xəttində gərginliyin artması haqqında xəbərlər oxuyuram. Azərbaycanın öz torpaqlarını qaytarmaq istəyi və cəhdləri tamamilə qanunidir. Amma biz burada mümkün əməliyyatın axırını da görməliyik. Əgər belə əməliyyat nəticəsində bir neçə rayonun qaytarılmasından sonra Rusiya öz "sülhməramlı qoşunlarını" cəbhə xəttinə yerləşdirəcəksə, əgər məhz bu planlaşdırılırsa, onda bu, bizim üçün Qarabağın əbədi əldən getməsi demək olacaq! Eyni zamanda bu, rus ordusunun yenidən Azərbaycana qaytarılması olacaq. Bu isə ümumilikdə müstəqilliyimizə böyük zərbədir".

**H.Hacızadə Gürcüstan nümunəsini yada saldı:** "Baxın, Gürcüstanda vaxtilə ruslar Şevardnadzenin razılığı ilə gürcü-abxaz və gürcü-osetin təmas xəttinə öz qüvvələrini yerləşdirdi. Nəticədə bu gün görürük ki, Abxaziya da, Cənubi Osetiya da Gürcüstanın əlindən çıxıb! Həmin vəziyyət bizdə də ola bilər. Mən hamını bu barədə düşünməyə və səsini ucaltmağa çağırıram! Belə gedişata görə şəxsən mən çox narahatam. Müstəqilliyimiz son 25 ildə əldə etdiyimiz ən böyük milli nailiyyətdir. İndi o, təhlükə altındadır! Biz hamımız buna məsuliyyətlə yanaşaq!"



**Hikmət Hacızadə:** "Rusiya öz "sülhməramlı qoşunlarını" cəbhə xəttində yerləşdirsə, bu, bizim üçün Qarabağın əbədi əldən getməsi demək olacaq!"



**Elxan Şahinoğlu:** "Sanki geri dönüşü mümkün olmayan mərhələyə qədəm qoymuşuq"

**Politoloq Elxan Şahinoğlu "Yeni Müsavat"a dedi ki, Rusiyanın xarici işlər naziri Sergey Lavrovun azərbaycanlı həmkarı Elmar Məmmədyarovu qəfil Moskvaya dəvət etməsi yumşaq şantaj elementinə oxşayır:** "Görünür, Kreml Azərbaycan ordusunun cəbhə bölgəsindəki fəallığından və hərbi balansın Azərbaycanın xeyrinə dəyişməsindən narahatdır. Məmmədyarovu Moskvaya çağırmaqda məqsəd rəsmi Bakını cəbhə bölgəsində hər hansı lokal hücum planından çəkindirmək, toqquşmaların başlayacağı halında bunun Azərbaycana hansı problemlər yaradacağını anlatmaqdan ibarətdir. ABŞ da bölgədə müharibədə maraqlı deyil, ancaq onun Azərbaycan hakimiyyətinə əli çatmır. Ona görə də Lavrovun Məmmədyarovu xəbərdar etməsi Vaşinqtonun da maraqlarına uyğundur. Bütün bunların müqabilində nə Moskva, nə də Vaşinqton Azərbaycanın işğal altındakı torpaqlarının boşaldılması mövzusuna əvvəlki tək maraq göstərmirlər".

**E.Şahinoğlu S.Lavrovun "münaqişənin həllinin vaxtı yetişib" fikrini ciddi qəbul etmir:** "Belə fikirləri illərdir eşidirik. Rusiyanın keçmiş prezidenti Dmitri Medvedyev də eyni sözləri deyirdi. Söhbət 7-8 il bundan gedir. Nə dəyişdi ki? Ona görə də Lavrovun bu cümləsinə xüsusi əhəmiyyət vermirəm, növbətçi açıqlamadır. Önəmli olan Rusiyanın münaqişənin həllinə baxışının dəyişib-dəyişməmədiyidir. Müsbət dəyişiklik yoxdur. Lavrov amerikalı diplomat Ceyms Uorlik kimi "Dağlıq Qarabağ ətrafındakı rayonlar boşaldılmalıdır" desəydi, onda Kremlin mövqeyində ciddi dəyişiklik baş verdiyini söyləmək mümkün idi. Ancaq biz rusiyalı rəsmilərdən və diplomatlardan belə bəyanat və açıqlamalar eşitmirik. Dağlıq Qarabağda girov saxlanılan iki azərbaycanlıdan biri Rusiya vətəndaşıdır. Lavrova bununla bağlı dəfələrlə sual verib, heç birinə cavab verməyib. Çünki Dağlıq Qarabağ separatçılarını özlərinki sayırlar, onları tənqid etmirlər, dəstəklədikləri Abxaziya, Cənubi Osetiya, Dnestr və ya Donbass separatçılarından ayırmırlar. Rusiyalı rəsmilər və ya diplomatlar vətəndaşları olan və Dağlıq Qarabağa köçən keçmiş milyarder German Sterliqovun əməlinə nə hüquqi, nə də siyasi qiymət verirlər. Rusiya silahı Ermənistana kreditlə verir, Azərbaycana isə pulla satır".

**Politoloq qeyd etdi ki, problemin qısa müddətdə sülh yoluyla həllində maraqlı olan ölkə qarşı duran tərəflərə silah ötürməz:** "Əksinə, bölgənin silahlanmasından narahat olduğunu bildirərək, bunun sülh prosesinə mane olduğunu vurğulayar. Ancaq Kreml hər iki tərəfə silah verir ki, vəziyyət daha da mürəkkəbləşsin. Rusiya Azərbaycanın güclənməsində maraqlı deyil. Əks halda, harda görünüb ki, bir ölkə başqa bir ölkəyə silah almaq üçün kredit versin. Məqsəd Ermənistanın müdafiə qabiliyyətini artırmaqdır. Ermənistan həmin silahların bir hissəsini Azərbaycanla sərhəddə, digərini Dağlıq Qarabağda yerləşdirəcək. Yəni biz gələcək lokal və ya genişmiqyaslı toqquşmada sözün həqiqi mənasında Rusiyanın silah və hərbi texnikası ilə vuruşaraq onları məhv etməyə çalışacağıq. Doğrudur, bizim əlimizdəki silahın da bir hissəsi Rusiya istehsalıdır, ancaq Ermənistandan fərqli olaraq bizdə heç olmazsa başqa ölkələrin də müasir silahları var. Bölgə sürətlə silahlanır. Bu vəziyyət atəşkəsin daima pozulmasını və lokal toqquşmaları qaçılmaz edir. Məsələn, əgər əvvəllər cəbhə bölgəsində yalnız snayper müharibəsi gedirdisə, hazırda hər iki tərəf mərmilərdən və minomyot atəşlərindən istifadə edir. Ermənistan Tovuzda bizə problem yaradırsa, kəndlərimizi hədəf alırsa, biz ona daha böyük problem yaradırıq, necə ki, açılan atəşlə Ermənistandan keçən qaz kəməri partladıldı. Həmsədr dövlətlər yaxın aylarda Ermənistanı Dağlıq Qarabağ ətrafındakı torpaqların boşaldılmasına məcbur etməsələr, vəziyyət daha da gərginləşəcək. Hərbi büdcəmiz artıb, hərbi texnikaya milyardlarla dollar xərclənib, ardınca hərbi strategiyamız dəyişib, düşmən postları onlar üçün artıq təhlükəsiz yer deyil, təyyarələrini Qarabağ səmasında vururuq, hərbi təyyarələrimiz işğal zonasında uçuşlar həyata keçirirlər, hərbi xəstəxanaların boşaldılmasına dair informasiyalar dolaşır".

**E.Şahinoğlunun fikrincə, sanki geri dönüşü mümkün olmayan mərhələyə qədəm qoymuşuq:** "Sülhü təmin edə bilməyən həmsədr dövlətlər isə gələcək qarşıdurmanı seyr etməyə hazırlaşırlar. Belə çıxır ki, lokal və ya genişmiqyaslı toqquşma olmadan məcburi sülhə yaxınlaşmayacağıq. Bəlkə bu, həmsədrlərin də işini asanlaşdırdı".

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Elşad PAŞASOY

YENİ MÜSAVAT
N 156 (6184) 21 iyul 2015

# Türkiyədə terror - 30 nəfər öldü, 100-dən çox insan yaralandı

**Türkiyənin Şanlıurfa şəhərinin Suruç qəsəbəsindəki Amara Mədəniyyət Mərkəzində iyulun 20-də baş verən partlayışda 30 nəfər həlak olub. Türkiyə Daxili İşlər Nazirliyinin verdiyi xəbərdə bildirilir ki, partlayışda 100-dən çox insan yaralanıb. İlkin xəbərlərdə partlayışı kamokadzenin törətdiyi bildirilir.**



## Həlak olanların çoxu kürdlərin yaşadığı Kobani şəhərində Suriyanın hökumət qüvvələri ilə vuruşmağa gedən gənclər olub; üfüqdə qardaş ölkədə təkrar seçki görünür






Saat 11.50-də Sosialist Gənclər Dərnəkləri Federasiyasının Kobaninin yenidən inşası ilə bağlı keçirdiyi mətbuat konfransına gələn kamikadze insanların gur olduğu yerdə dayanaraq partlayış törədib.

Hadisə yerinə dərhal polislər və təcili yardım çağırılıb. Yaralılar şəhərin xəstəxanalarına aparılıb. Səhiyyə Nazirliyinin açıqlamasında ağır yaralananların çox olduğu üçün ölü sayının artması ehtimalının yüksək olduğu bildirilir.

Daxili İşlər Nazirliyinin yaydığı rəsmi açıqlamada insanların panikaya düşməməsi və milli zəmində qarşıdurmaya yol verilməməsi üçün provokasiyalardan uzaq durmaları tövsiyə edilir. Olaydan sonra ətraf şəhərlərdən Şanlıurfaya xeyli sayda təhlükəsizlik qüvvələri cəlb edib. Baş nazir Əhməd Davudoğlunun göstərişi ilə bir neçə hökumət üzvü, o sıradan daxili işlər naziri bölgəyə ezam olunub.

Şəhərə, özəlliklə partlayış baş verən qəsəbəyə giriş-çıxış xüsusi nəzarətə götürülüb.

Olay prezident Ərdoğan Kıbrıs Barış Hərəkatının 41-ci il qutlamaları üçün Quzey Kıbrıs Türk Cümhuriyyətinə gedən saatlarda baş verib. Türkiyə mediası yazır ki, Levkoşaya enər-enməz xəbəri alan Ərdoğan səfərdəki heyətlə durumu dəyərləndirib və gərəkli göstərişlər verib.

Yada salaq ki, əsasən kürdlərin yaşadığı qəsəbə Suriya sərhədinə çox yaxındır. Olaydan 2 saat sonra Türkiyə-Suriya sərhədində daha bir terror hadisəsinin baş verməsi haqqında xəbərlər yayılıb. İddia olunub ki, sərhədə yaxın ərazidəki yaşayış məntəqəsində baş verən partlayışda 10-a yaxın insan həlak olub.

Ancaq sonradan bəlli olub ki, parlayış Suriya ərazisindəki Kobani kəndində baş verib.

Türkiyə mediası yazır ki, həlak olanların çoxu Suriyada kürdlərin yaşadığı Kobani şəhərində Suriyanın hökumət qüvvələri ilə vuruşmağa gedən gənclər olub. Onlar Kobani şəhərinin müdafiəsi üçün Türkiyənin müxtəlif bölgələrindən gələn gənclər imiş.

Şahidlər deyir ki, canlı bomba mətbuat konfransının başladığı ilk anda baş verib: **"Toplantı yeni başlamışdı. Gənclər Kobaniyə necə gediləcəyini danışırdılar. Bu an partlayış oldu. O qədər güclü idi ki, hamımız cəsədlərin altında qaldıq. Meyitlər ətrafa səpələnmişdi. Bir anda hər yer qan gölünə döndü. Partlayış mətbuat konfransı keçirilən sahənin tam mərkəzində baş vermişdi".**

Türkiyə Daxili İşlər Nazirliyinin verdiyi son açıqlamada isə bildirilir ki, terror hadisəsini hansı qrupun törətməsi haqqında ilkin versiya yoxdur. Bu səbəbdən bütün ehtimallar araşdırılır.

Terrorun İŞİD-çilər tərəfindən törədildiyinə dair gümanlar da var.

Sakit keçən Ramazan bayramı günlərindən sonra Türkiyənin siyasi gündəminin koalisiya danışıqları ilə hərəkətlənəcəyi gözlənilsə də Şanlıurfadakı terror ölkədə təhlükəsizlik məsələsini ön plana çıxarıb. Sosial mediadakı müxtəlif qruplar Türkiyənin təhlükəsizliyi ilə bağlı qızğın müzakirələr başlayıb. Bölgəni PKK-nın geniş fəaliyyət sahəsi kimi təqdim edən qrup baş verənlər üçün terrora dəstək verən kürdlərin məsuliyyət daşıdığını bildirir. Qrup iddia edir ki, Türkiyənin hökumət qüvvələrinin bölgəyə nəzarətini hər imkanda əngəlləməyə çalışan terror tərəfdarları özləri də dərk etmədən öz həyatları üçün təhlükə yaradırlar. Bu səbəbdən baş verən olayların həm siyasi, həm də hüququ məsuliyyəti kürdlərin təmsil olunduğu HDP-dədir. Digər bir qrup isə iddia edir ki, AKP iqtidarı dönəmində kürd açılımı etməklə bölgədə PKK-ya dəstək verən kürdlərə sərbəstlik qazandırıb. Bunun acısını isə dağda Türkiyə dövlətinə qarşı döyüşən PKK-lılar deyil, sadə kürd xalqı yaşayır.

Ölkədə koalision hökumət formalaşdırılmasına bir ay qalsa da hələlik partiyalar heç bir formul üzərində razılığa gələ bilmir. Siyasilərin son açıqlamalarından bəlli olur ki, partiyalar artıq erkən seçkinin ön hazırlıqlarına başlayıb. Bəzi MHP və CHP təmsilçiləri təkrar seçki olarsa partiya siyahılarının dəyişdirilməyəcəyi haqqında danışıb. AKP-yə müxalifətdə olan partiyaların təmsilçiləri deyir ki, son seçkidə bütün bölgələr üzrə uğurlu namizədlərin müəyyən olunması ilə AKP-nin 13 illik təkhakimiyyətliliyinə son qoyulub. Bu səbəbdən yeni siyahılar üzərində baş sındırmaqdansa, eyni namizədlərin xalqdan daha çox dəstək alması üzərində iş aparılması faydalı olar.

Milliyyətçi Hərəkat Partiyasının sədri Devlet Bahçeli də son açıqlamasında təkrar seçki keçirilsə, ölkənin MHP-yə etimad edəcəyini söyləyib. MHP lideri deyib ki, seçkidən keçən ay yarımlıq sürəcdə vətəndaşlar AKP-nin Türkiyənin xeyrinə olan bütün modellərə əngəl olduğunu, hər vasitə ilə PKK-nın siyasi qolu olan HDP-nin siyasi həyatdakı rolunu gücləndirməyə çalışdığını görüb, ona görə də təkrar seçki olsa, AKP daha az səs toplayacaq. Müxalifət lideri AKP-nin bu davranışlarını Türkiyənin təhlükəsizliyinə təhdid saydığını bildirib.

Ancaq həm MHP-də, həm də CHP-də təkrar seçkini əlavə güc və vaxt itkisi sayanlar da var. Onların fikrincə, partiyalar bir an öncə koalisiya dialoqlarından nəticə əldə etməlidirlər. MHP-nin AKP ilə koalisiyaya tərəfdar olan kəsimi iddia edir ki, təkrar seçki mənzərəni MHP-nin deyil, AKP-nin xeyrinə dəyişəcək. AKP bütün imkanlarını səfərbər edərək 7 iyun seçkisindən daha uğurlu nəticələr əldə etmək üçün çalışacaq. Bu isə yenidən Türkiyəni AKP-nin təkhakimiyyətliliyinə sürükləyə bilər.

**❑ Aygün MURADXANLI**

# Gədəbəydə "qoyun töycüsü" yığılır - 1 qoyun 1 manat

## İcra başçısı otlaq sahələrini özünün varlanma poliqonuna çevirib




**Gədəbəydə yeni töycü növü tətbiq olunur. Rayon ərazisindəki otlaqlara sürülər pul müqabilində buraxılır. Pul verməyənlərin qoyunları tövlədə saman yeyir. Gülməlidir, amma bu bir reallıqdır. Gədəbəydən aldığımız məlumata görə, icra başçısı Ramiz Yediyarov otlaq sahələrini özünün varlanma poliqonuna çevirib. Sürüləri yaylağa buraxmaq üçün qoyun başına pul yığdırır.**

Bu işə başçının müavini - aqrar məsələlər şöbəsinin müdiri Rüstəm Nağıyev baxır. Kim sürüsünü Gədəbəy dağlarındakı yaylaqlara buraxmaq istəyirsə, Rüstəm Nağıyevə hər qoyuna görə 1 manat ödəməlidir. Hazırda Gədəbəy dağlarındakı sürülərdə 100 minə yaxın qoyun olduğu bildirilir. Qazanc da adekvatdır. Qeyd olunur ki, bu qaydanın tətbiqi yerli sakinləri çətin vəziyyətə salıb. Məmurların sürülərində olduğundan qat-qat az qoyunu olan yerli sakinlər onlardan tələb olunan pulu verməli məcburiyyətində qalıblar. Bu isə onların büdcəsinə ziyan vurur. Qaydanın tətbiqindən sonra qoyunları satan yerli sakinlər də olub. Beləcə yerli sakinləri məhdud gəlir sahələrindən olan qoyunçuluqdan əllərini üzməsi baş verir. Bu gedişlə yaxın illərdə kasıbların qoyunçuluqla məşğul olması da aradan qalxacaq. Yerli sakinlərin qoyun sürülərinin əvəzinə yaylaqlara oliqarx-məmurlarımızın sürüləri çıxarılmaqdadır. Bu, R.Yediyarovun işinə yarayır. Sabiq-vitse primyer Abbas Abasovun, keçmiş təhsil naziri Misir Mərdanovun, Bəylər Əyyubovun, Ziya Məmmədovun, Vasif Talıbovun, "Qaçqınkom"un sədri Əli Həsənovun, baş nazirin 1-ci müavini Yaqub Eyyubovun, Hacıbala Abutalıbovun, şeyx Hacı Allahşükür Paşazadənin Bakının və kənd rayonlarının əksər polis rəislərinin, bəzi icra başçılarının, bir sıra komitə sədrlərinin, deputatların qoyun və mal-qara sürülərinin varlığı haqda xəbərlər əvvəllər də tirajlanıb.

Gədəbəy dağlarında hazırda otlayan sürülərin böyük hissəsi də məmur-oliqarxlarındır. Onları fermerə çevirən maraqlı səbəblər var. Məlumdur ki, iqtidardakı iri və orta ranqlı məmurların demək olar ki, hamısı bizneslə məşğuldur. İri obyektləri - restoranları, şadlıq sarayları, əyləncə mərkəzləri də saysız-hesabsızdır. Bütün bu obyektlərdə qoyun-quzu ətinə olan gündəlik tələbatı öz fermer təsərrüfatları hesabına ödənilir. Büdcədən oğurlanan pullar qoyun-quzuya yatırılmaqla "yuyulur", həmin qoyun-quzunun kökəldilməsi və sonradan iaşə obyektlərində ətinin satışı hesabına üstəlik artırılır da. Vəziyyətin belə olması otlaq sahələri olan rayonların icra başçılarının da işinə yarayır. Uduzan təkcə yerli və dayağı olmayan fermerlərdir.

Qeyd edək ki, bir müddət əvvəl Goranboyun Meşəli kəndi ərazisindəki otlaq sahələrinə çobanların buraxılmaması haqda məlumat almışdıq. Bildirilirdi ki, 20-yə yaxın çoban ailəsindən 400-800 manat arası pul və ya qoyun-quzu alıb onların sürülərini otlaq sahələrə buraxırlar...

**❑ E.HÜSEYNOV**

**P.S** *Yazıda adı hallanan hər kəsi dinləməyə hazırıq.*

YENİ MÜSAVAT
N 156 (6184) 21 iyul 2015

# İran məsələsində Rusiyanın ABŞ-a dəstək verməsinin sirri

## Şahin Cəfərli: "Rusiya beynəlxalq problemlərin həllində qlobal oyunçu kimi qalmaq, proseslərdəki yerini itirmək istəmir..."

**Xəbər verdiyimiz kimi, iyulun 14-də uzun sürən danışıqlar prosesindən sonra İran və "altılıq" ölkələri arasında nüvə məsələsi ilə bağlı yekun razılıq əldə olunub. Bu razılaşma təxminən son 12 ildə İslam Respublikası ilə ABŞ başda olmaqla, Qərb dünyası arasında gərgin münasibətlər dönəminin rəsmən başa çatması hesab olunur.**

Bir çox müşahidəçilərə görə, anlaşma İran və ABŞ arasında yaxınlaşmaya səbəb olacaq. Çünki faktiki surətdə sanksiyaların götürüləcəyi təqdirdə bir sıra Qərb ölkələri, o cümlədən ABŞ-ın nüfuzlu enerji şirkətləri İranda iş görməyə başlayacaqlarını açıqlayıblar. Eyni zamanda embarqoların qaldırılması İranın Yaxın Şərqdə ABŞ-la əməkdaşlıq imkanlarını da genişləndirir. Bu barədə həm Amerika rəsmiləri, həm də İran prezidenti və rəsmilərinin optimist açıqlamaları var.

Bu arada ABŞ prezidenti Barak Obama İranın nüvə proqramı ilə bağlı əldə olunan tarixi sazişin detallarını açıqlayıb. Obama qeyd edib ki, razılaşma İranın uran ehtiyatlarının 98 faiz azaldılması, zənginləşdirilmiş uranın istehsalında istifadə olunan sentrafuqların sayının 20 mindən 6 minədək azaldılmasını və İranın yaxın 15 il ərzində, ümumiyyətlə, bu tip reaktor tikməməsini nəzərdə tutur. Bu proses İranın obyektlərini daim yoxlayacaq Atom Enerjisi üzrə Beynəlxalq Agentliyin hərbi ekspertlərinin nəzarətində olacaq.

Obama xəbərdarlıq edib ki, razılaşmada əks olunan müddəalardan hər hansı biri pozularsa, İrana qarşı bütün iqtisadi sanksiyalar qüvvəyə minəcək. Oxşar xəbərdarlığı İranla danışıqların əsas "memarı", dövlət katibi Con Kerri edib. Yeri gəlmişkən, İranın ali dini lideri Ayətullah Əli Xameneyi də Tehranda Fitr bayramı namazı zamanı etdiyi çıxışında Qərbə xəbərdarlıq edib. İranın Qərbin təhdidləri qarşısında geri çəkilmədiyini qeyd edən dini lider bir daha nüvə silahının haram olması haqda fətvasını xatırladıb və İranın nüvə silahı əldə etmək fikrində olmadığını deyib. Ancaq eyni zamanda deyib ki, İranın Qərb qarşısında geri çəkilmək fikri yoxdur və Yaxın Şərqdəki ənənəvi müttəfiqlərini dəstəkləməkdə davam edəcək. O, açıq şəkildə bəyan edib ki, "amerikalılara etimad etmir".



Ancaq sərt tonlu qarşılıqlı çıxışlara baxmayaraq, müşahidəçilərə görə, hər iki tərəf əldə olunan anlaşmaya sadiq olmağa çalışacaq. Çünki anlaşma hər iki əsas tərəf, yəni ABŞ və İran üçün yeni imkanlar açır. Qarşılıqlı xəbərdarlıqlar isə ənənəvi müttəfiqlərə ünvanlanıb. Yəni hər iki tərəf keçmiş müttəfiqlərini itirmək niyyətində olmadığını büruzə verir.

Anlaşmadan dərhal sonra B.Obama Səudiyyə Ərəbistanı kralı və BƏƏ əmiri ilə danışaraq anlaşma haqda məlumat verib. O cümlədən ötən gün ABŞ müdafiə naziri Eşton Karter İsrailə səfər edib. Bütün bu səfər və telefon diplomatiyasının əsas səbəbi Amerikanın region müttəfiqlərinin əndişələrini azaltmağa hesablanıb.

Ancaq bu gəlişmələrin fonunda ən çox diqqət çəkən detal Rusiyanın mövqeyi oldu. Məsələ burasındadır ki, Rusiya "altılıq" ölkələri ilə birlikdə İranla aparılan danışıqlarda iştirak edib. Və Moskva ənənəvi region müttəfiqinin ABŞ-la dostluq yolunu açan anlaşmaya mane olmayıb, əksinə, dəstək verib. Anlaşma əldə olunan kimi rəsmi açıqlama yayan prezident Putin özü də İran-"altılıq" razılaşmasını alqışlayıb.

Rusiyanın ənənəvi müttəfiqini az qala itirmək kimi yozulan Vyana anlaşmasına dəstək verməsinin səbəbləri xeyli dərəcədə maraq doğurur.

**Siyasi şərhçi Şahin Cəfərli deyir ki, Rusiyanın İranla Qərb arasında kompromisin əldə olunması prosesində müsbət iştirakı hər şeydən əvvəl bu ölkənin beynəlxalq proseslərdəki yerini qorumaq və gələcək regional təşəbbüslərdə rol almaq üçün zəmin hazırlamaq istəyindən irəli gəlir. Bundan başqa, ekspertə görə, anlaşmanın bir sıra detalları iqtisadi baxımdan Rusiya üçün əlverişlidir:** "Məlumdur ki, Krımın ilhaqından və Donbas böhranından sonra Qərb Rusiyaya qarşı təcrid siyasəti yeridir. Rusiya "böyük səkkizlik"dən (G 8) kənarlaşdırılıb və bu qlobal beynəlxalq klub əvvəlki "böyük yeddilik" (G 7) formatına geri dönüb. Bundan başqa, Rusiyaya iqtisadi sanksiyalar tətbiq olunub və Qərbin maliyyə-texnologiya bazarları Moskvanın üzünə demək olar ki, bağlanıb. İran məsələsində qeyri-konstruktiv mövqe tutması Rusiyanın beynəlxalq təcridini heç şübhəsiz, daha da gücləndirərdi və Qərbin bu ölkəyə təzyiqlərinin daha da artmasına səbəb olardı. Halbuki Rusiya beynəlxalq problemlərin həllində qlobal oyunçu kimi iştirak etmək arzusundadır və Vyanadakı yekun fotoda yer almaq bu baxımdan onun üçün vacib idi. İrandan zənginləşdirilmiş uran çıxarılaraq Rusiyaya aparılacaq və əvəzində Rusiyadan bu ölkəyə təbii uran gətiriləcək. Bundan başqa, Rusiya Fordo nüvə obyektinin istehsal yönümünün dəyişdirilərək bu obyektin sənaye və tibbi məqsədli kimyəvi məhsullar istehsalı üzrə müəssisəyə çevrilməsində iştirak edəcək".

**Ş.Cəfərli deyir ki, Moskvanın konstruktivliyinin başqa bir səbəbi İranla ikitərəfli münasibətlərin perspektivi ilə əlaqədardır:** "İranla anlaşmanı pozmağa çalışması və ya prosesdən kənarda durması Moskvanın Tehranla münasibətlərinə və müvafiq olaraq regional nüfuzuna ciddi zərbə vurardı və onun manevr imkanlarını daraldardı. Rusiya yaxın gələcəkdə İranda həyata keçiriləcək müxtəlif iqtisadi layihələrdə iştirak etmək niyyətindədir və bu ölkəni silah satışı üçün əsas bazarlardan biri kimi görür. Düzdür, Vyana razılaşmasının şərtlərinə görə, İran qarşı tətbiq olunmuş silah embarqosu 5 il qüvvədə alacaq. Lakin bu müddətdə Rusiya ilə İran arasında silah alqı-satqısına dair milyardlarla dollar dəyərində razılaşmalar əldə olunması üçün hər hansı maneə yoxdur və bu razılaşmalar silah embarqosunun ləğvindən dərhal sonra icra oluna bilər".

**Ekspertə görə, Rusiyanın digər marağı regional problem olan Suriya məsələsinin həllində aktiv rol almaq niyyəti ilə bağlıdır. Ş.Cəfərliyə görə, İranla "altılıq" arasındakı anlaşma Moskvanın Suriya məsələsinin çözümündə iştirakı üçün münbit zəmin hazırlamış oldu:** "Böyük ehtimalla İran məsələsinin həllindən sonra Suriya probleminin həllində də Vaşinqtonla Moskvanın mövqeyi müəyyən qədər üst-üstə düşəcək. ABŞ-ın Əsəd rejimi ilə çox yaxın əlaqələri olan Kremlin diplomatik imkanlarından yararlanması istisna deyil. "İŞİD" təhlükəsi ilə mübarizə də ABŞ və Rusiyanın ortaq çalışma sahəsi ola bilər. Lakin bütün bunlar ABŞ-Rusiya münasibətlərində "bal ayı"nın başladığını söyləməyə əsas vermir. Müəyyən taktiki məsələlərin həllində mövqelərin uzlaşmasının qlobal rəqabətə ciddi təsir göstərəcəyini söyləmək hələlik tezdir. Təsadüfi deyil ki, Rusiya İran probleminin həllindən sonra ABŞ-dan Avropada raket hücumundan müdafiə sistemi qurmaq planından imtina etməsini gözləsə də, Vaşinqtondan gözlədiyi cavabı ala bilməyib. ABŞ bu planlarını həyata keçirəcəyini bəyan edib. Digər vacib problem isə Ukraynadakı Donbas münaqişəsidir. ABŞ Rusiyanın destruktiv təsiri nəticəsində bu münaqişənin yenidən alovlanacağı təqdirdə, bu ölkəyə qarşı növbəti, 4-cü sanksiya paketini tətbiq edəcəyini açıqlayıb. Rusiya-ABŞ (Qərb) münasibətlərinin sonrakı axarı Ukraynadakı proseslərlə bilavasitə əlaqəli olacaq".

❑ **Kənan RÖVŞƏNOĞLU**

# "Ukraynada pis ssenarilərə hazır olmalıyıq"

## Elxan Şahinoğlu: "Rusiyanın məqsədi Şərqdə atəşkəsi davamlı edib sakitlik yaratmaqdır ki, Ukraynanın başı daxili problemlərinə qarışsın"

**Son bir həftədə Ukraynada vəziyyət yenidən gərginləşib. Əvvəlcə hökumət qüvvələri ilə "sağ sektor" döyüşçüləri arasında qarşıdurmalar başlandı. Daha sonra isə ölkənin şərqində Donetskdə hökumət qüvvələri ilə rusiyapərəst üsyançılar arasında kövrək olan atəşkəs pozulub.**

Hər iki tərəf atəşkəsi pozmaqda bir-birilərini təqsirləndiriblər. Rəsmi Kiyev üsyançıları Minsk razılaşmanı pozmaqda və razılaşma əsasında qadağan olunmuş silahlardan istifadə etmək ittiham edir. Eyni zamanda qarşı tərəf hökumət qüvvələrini atəşkəsi birinci pozmaqda ittiham edir. Üsyançılar hökumət qüvvələrinin atəşi nəticəsində təbii qaz kəmərinin sıradan çıxdığını bildiriblər.

Bu arada Ukrayna böhranının gərginləşməsi ilə bağlı olaraq diplomatik hərəkətlilik də artıb. Rusiya XİN rəhbəri Sergey Lavrov son iki gündə ABŞ dövlət katibi Con Kerri və ukraynalı həmkarı Pavel Klimkinlə telefon danışığı aparıb. Danışıqlar zamanı Ukraynanın şərqində atəşkəsin bərpası, silahsızlanma kimi məsələlər müzakirə olunub. Lavrov ukraynalı həmkarı ilə danışıqları zamanı separatçıların geri çəkildiyini və Ukrayna ordusunun da geri çəkilməsinin vacibliyini vurğulayıb.

Siyasi şərhçi Elxan Şahinoğlunun fikrincə, Ukraynada daxili gərginliyin artması ölkəni vətəndaş müharibəsinə sürükləyə bilər ki, bu da separatçılar və onların dəstəkçisi olan Rusiya üçün əlverişli şərait yaradır. Ekspertin qənaətinə görə, savaşın ilk dövründə faydalı olan könüllü birliklər artıq öz əhəmiyyətini itirib: "Ukraynanın Qərbindəki toqquşmalar göstərdi ki, prezident Pyotr Poroşenko "Sağ sektor" və digər silahlı qrupları tərk-silah etməsə, ölkədə vətəndaş müharibəsi ehtimalı artacaq. Rusiyaya da elə bu lazımdır. Ukraynanın keçmiş prezidenti Viktor Yanukoviç Maydan olayları zamanı ölkəni



tərk etdikdən sonra bəlli oldu ki, bu ölkənin normal ordusu yoxdur. Ordu olsaydı, Krımın işğalına müqavimət göstərərdi. Rusiya Ukrayna ordusunu illərdi nəzarətdə saxlayırmış, orada öz adamlarını yerləşdirmişdi. Yanukoviç Rusiyaya sığınan kimi Kreml öz adamları vasitəsilə Ukrayna ordusunu dağıtdı. Kreml Ukrayna ordusunun bu vəziyyətindən istifadə edərək Ukraynanın şərqindəki separatçılara fəaliyyətə başlamaq əmrini verdi. Dağılan Ukrayna ordusu necə ki, Krımı döyüşsüz işğalçılara təslim etdi, eləcə də şərqdəki separatçılar qarşısında aciz idi. Bu batalyonlar Rusiya prezidenti Vladimir Putinin planlarını pozdular, ukraynalı millətçi qruplar separatçılığın Odessa, Xarkov, Dnepropetrovsk, Xerson və digər şəhər və əyalətlərə yayılmasına imkan vermədilər. Bu batalyonlar şərqdə də separatçılığa qarşı uğurla savaşırdılar".

**Ancaq buna baxmayaraq, artıq könüllü batalyonlar Ukrayna üçün problemə çevrilir. E.Şahinoğlu deyir ki, rəsmi Kiyevin qarşısında dayanan əsas vəzifə könüllü batalyonları ləğv edib orduya birləşdirməkdir:** "Zamanla millətçi batalyonlar haqqında neqativ xəbərlər də gəlirdi. Onlar bəzən özbaşına hücuma keçir, adam oğurlayır, mülki insanlara əziyyət verirdilər. Bunu Kiyev də sonda etiraf etmək məcburiyyətində qaldı. Bəzi silahlı millətçilərə qarşı cinayət işi açıldı. Poroşenko ordunu yenidən qurur və bu mərhələdə bütün silahlı qrupların ordunun tərkibinə qatılmasını istəyir. Bunu hər bir normal ölkənin rəhbəri istəyər. Ancaq Ukrayna üçün bu asan deyil. Çünki silahlı qruplar o qədər gücləniblər ki, hakimiyyətə meydan oxuyurlar, onlar dövlətdən yox, ayrı-ayrı oliqarxlardan maliyyə alırlar. Silahlı qruplar tərk-silah olunmadan Ukraynada vəziyyət sabitləşməyəcək. Rusiya və Ukraynanın şərqindəki separatçılar da bunda maraqlıdır. Bu vəziyyət şərqdəki separatçı qüvvələrin və onların himayədarı kimi çıxış edən Moskvanın işinə yarayır. Separatçılar hazırda hər vəchlə toqquşmalardan yayınmağa çalışır. Onlar istəyirlər ki, Ukraynada vətəndaş müharibəsi başlasın. Məqsəd Şərqdə atəşkəsi davamlı edib sakitlik yaratmaqdır ki, Ukraynanın başı daxili problemlərinə qarışsın. Həm də istər-istəməz xarici düşmən milləti və bütün silahlı qruplaşmaları birləşdirirdi. Atəşkəsdirsə və xarici düşmənlə toqquşma yoxdursa, deməli, diqqət daxildəki problemlərə yönəlir. Moskva da bundan istifadə etmək istəyir. Əgər "Sağ sektor"un rəhbəri Dmitri Yaroş yaxın müddətdə prezidentlə razılaşıb silahlı qüvvələrin ordu birlikləri ilə inteqrasiyasına yaşıl işıq yandırmazsa, növbəti silahlı toqquşmaların da şahidi ola bilərik. Hələ ki Yaroş tərəfdarlarını ölkə rəhbərliyinə qarşı itaətsizliyə çağırır. Demək, Ukraynada pis ssenarilərə hazır olmalıyıq".

❑ **KƏNAN**

# Baş mühasib intihar etdi



Nəqliyyat Nazirliyinə tabe olan "Azərbaycan Dəmir Yolları" QSC-nin Şirvan şəhərində yerləşən idarələrindən birində baş mühasib müəmmalı şəkildə intihar edib. Olay Şirvan şəhəri, Natəvan küçəsi 61 ünvanında qeydə alınıb. Həmin ünvanda yaşayan 1968-ci il təvəllüdlü Rəmzi Elxan oğlu Kərimovun meyiti həyətindəki üzüm çardağından asılmış vəziyyətdə aşkarlanıb.

Baş mühasibin meyitini ilgəkdən ayıran Şirvan hüquq-mühafizə orqanlarının əməkdaşları ilkin olaraq belə qənaətə gəliblər ki, R.Kərimov intihar edib. Onun meyiti Şirvan Rayon Məhkəmə Tibb Ekspertizasına aparılıb. İlkin müayinə zamanı mərhumun bədəni üzərində gözlə görünən xəsarətlər aşkar olunmayıb. Hadisə yerini müayinə edən istintaqçılar R.Kərimovun öldürülməsinə dəlalət edən hər hansı bir əşya, dəlil aşkar etməyiblər. Bununla belə, baş mühasibin istintaq sonuclanmayana qədər öldürülmədiyini də iddia etmək düzgün deyil. R.Kərimov intihar edənlərin böyük əksəriyyətinin masa arxasına keçib məktub yazmaq kimi son addımını təkrar etməyib. Yazmayıb ki, mənim ölümümdə kimsə günahkar deyil, özümə qəsdimin səbəbi xəstəliyimdir və ya hansısa problemimdir. Məlumdur ki, mühasiblər başqalarının pulunu idarə etməkdə məsuliyyət daşıyırlar, buna görə çox təzyiq və stress altında olurlar. Pulun çox asan qazanılıb itirildiyi bu sektorda iqtisadi böhran yaşandığında intiharlar artır. Pulların silinməsinə məcburetmə də mühasiblərin intiharına aparan yollardandır.

Üstəlik, R.Kərimov Nəqliyyat Nazirliyi kimi korrupsiyalaşmış bir təşkilata tabe qurumlardan birində çalışıb. Bu baxımdan istintaqın baş mühasibin boynuna ilgək keçirməsinin peşə fəaliyyəti ilə əlaqəsini yoxlaması da zəruridir.

Hazırda R.Kərimovun intihar faktına görə Şirvan Şəhər Prokurorluğunda Cinayət Məcəlləsinin 125-ci(özünü öldürmə həddinə çatdırma) maddəsi ilə cinayət işi başlanıb.

❑ E.MƏMMƏDƏLİYEV



## Şamaxıda qarşısına it çıxan avtomobil qəza törətdi; sərnişin öldü

**Şamaxıda avtomobil yoldan çıxaraq dəmir məhəccərə çırpılıb. "Report" xəbər verir ki, Bakı-Şamaxı-Yevlax avtomobil yolunda, Şamaxı şəhəri ərazisində baş verən hadisə nəticəsində bir nəfər ölüb.**

Belə ki, "VAZ 21014" markalı minik avtomobili hərəkətdə olarkən qarşısına it çıxıb və sürücü idarəetməni itirib, nəticədə maşın yolun kənarındakı dəmir məhəccərə çırpılıb. Qəza nəticəsində avtomobilin arxa qapısı açılıb və sərnişin, Oğuz rayon sakini 26 yaşlı Şahmar Sadəddinov yolun hərəkət hissəsinə düşərək hadisə yerindəcə dünyasını dəyişib.

Faktla bağlı Baş Dövlət Yol Polisi İdarəsinin istintaq və təhqiqat şöbəsi tərəfindən araşdırma aparılır.

## Mingəçevirdə avtomobil aşdı, sürücü öldü

**Mingəçevirdə yol-nəqliyyat hadisəsi qeydə alınıb. APA-nın Fövqəladə Hallar Nazirliyinin saytına istinadən verdiyi məlumata görə, "112" qaynar telefon xəttinə daxil olmuş məlumatda əsasən, Mingəçevir-Xaldan yolunun 3-cü kilometrliyində "Mercedes" markalı minik avtomobili idarəetməni itirərək aşıb. Aran Regional Mərkəzinin xilasedicilari tərəfindən deformasiyaya uğramış avtomobildə sıxılmış vəziyyətdə qalmış sürücü 1989-cu il İsrafilov Xəyal Sahil oğlunun meyiti avtomobildən çıxarılaraq aidiyyəti üzrə təhvil verilib.**

## Bakıda cəzaçəkmə müəssisəsində kütləvi dava baş verib

**Bakının Qaradağ rayonunda yerləşən 12 saylı cəzaçəkmə müəssisəsində (CM) kütləvi dava baş verib. "Report"un məlumatına görə, CM-də cəza çəkən 1972-ci il təvəllüdlü Qalib Əliyev 4 nəfər tərəfindən döyülüb. İlkin araşdırmalardan sonra Q.Əliyevin həmin müəssisədə cəza çəkən 31 yaşlı Nemət Nəcəfov və daha 3 nəfər tərəfindən döyüldüyü məlum olub.**

Hadisə ilə bağlı araşdırmalar aparılır.

## Zaqatalada vəzifəli şəxslərin evi qarət olundu



**Zaqatalada vəzifəli şəxslərin evi qarət edilib. Zaqatala Rayon Polis Şöbəsindən APA-ya verilən məlumata görə, Zaqatala şəhərində, Həzi Aslanov küçəsi ev 49 ünvanında yaşayan Həmzə İmran oğlu Süleymanov iyulun 12-dən 13-nə keçən gecə yaşadığı evin qarət edilməsi və mənzilindən xeyli miqdarda qızıl-zinət əşyalarının oğurlanması barədə polisə yazılı müraciət edib.**

Zaqatala RPŞ əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində Həmzə Süleymanova məxsus evdən oğurluq edən şəxslərin Zaqatala şəhər sakinləri - 1990-cı il təvəllüdlü Nəzir Məhəmməd oğlu Qarayev və 1989-cu il təvəllüdlü Nurlan Rəfayıl oğlu Musayev olduğu müəyyən edilib. Keçirilmiş tədbirlər nəticəsində Nəzir Qarayev və Nurlan Musayev tutularaq istintaqa təhvil verilib.

Aparılmış ilkin istintaq zamanı məlum olub ki, təqsirləndirilən şəxslər H. Süleymanovun mənzilindən 6000 manat məbləğində müxtəlif növ qızıl-zinət əşyaları, 41 manat və 30 ABŞ dolları nağd pul oğurlayıblar.

Faktla bağlı Zaqatala RPŞ-də Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlayıb, istintaq aparılır.

Qeyd edək ki, evi qarət olunan H. Süleymanov Dövlət Sosial Müdafiə Fondunun Zaqatala rayon şöbəsinin müdiri vəzifəsində çalışır. H. Süleymanovun həyat yoldaşı Vəfa Süleymanova isə Zaqatala Rayon İcra Hakimiyyəti başçısının təhsil, səhiyyə və mədəniyyət məsələləri üzrə müavinidir.

## Polis zabitinin oğlunun intiharının səbəbi bilindi

**Ağdaş rayonunda 1997-ci il təvəllüdlü Neman Araz oğlu Nəhmətov özünü tüfənglə güllələyərək intihar edib. Hadisə N.Nəhmətovun yaşadığı ünvanın həyətində baş verib. Məlumata görə, intihar edən gənc Ağdaş Rayon Polis Şöbəsinin baş əməliyyat müvəkkili olan polis mayoru Araz Nəhmətovun oğludur. "Yeni Müsavat"ın əməkdaşı iş üzrə istintaq aparan Ağdaş Rayon Prokurorluğunun müstəntiqi Pərviz Cəlilovla əlaqə saxlayıb. Müstəntiq gəncin intiharı ilə bağlı bunları deyib: "Araz Nəhmətov çox yaxşı yoldaşdır. Oğlunun onun tabel silahından istifadə etməklə intihar etməsi haqda deyilənlər doğru deyil. İntiharda qoşalülə tüfəngdən istifadə olunub. Həmin tüfəng Araz Nəhmətovun atasına məxsus olub".**

Müstəntiq intiharın səbəbinin də müəyyən olunduğunu açıqlayıb. Deyib ki, olayın ailədaxili münasibətlərdən qaynaqlanması haqda yayılan məlumatlar da düzgün deyil: "18 yaşı tamam olub, əsgərliyə getmək istəyib. Lakin uşaqlıqda aldığı yanıq xəsarətlərinə görə onu əsgərliyə aparmayıblar. Buna görə də çox məyus olub, sıxılıb. Nəticədə də belə bir hadisə baş verib".

Faktla bağlı Ağdaş Rayon Prokurorluğunda CM-in 125-ci (özünü öldürmə həddinə çatdırma) maddəsi ilə cinayət işi başlanıb.

❑ E.MƏMMƏDƏLİYEV


## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!
Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini
**d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra
**Tel: (012) 437-88-05; (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**



## Elan

Təcili sərfəli qiymətə 4 otaqlı mənzil satılır.
Nərimanov Məhkəməsinin həyətində, Stalin layihəli daş binada 4 otaqlı əla təmirli mənzil satılır. 4/2, ümumi sahəsi 120 kv.m, kupe şkaf, geniş, işıqlı otaqları, döşəmə mozaika parket, mətbəx və digər bütün mebellər, böyük vanna otağı, cakkuzi, sakit, təmiz həyəti, parkovka yeri var. Qiyməti 185 min manat. Bundan əlavə 2 maşınlıq daş qaraj da satışdadır. (36 kv.m. qiyməti-40.000 AZN.) Mənzilin bütün sənədləri qaydasındadır, mebelləri ilə bir yerdə satılır.
Tel: (050) 210-50-74

Özəl tibb müəssisəsinə 3-5 saata gündə işləmək üçün təqaüddə olan, damara iynə vura bilən tibb bacısı tələb olunur.
Tel: (012) 437-88-05 (13:00-dan sonra)
(050) 213-88-05 (13:00-dan sonra 17:00-dək)

Oğuz rayonunun Calut kəndində "Azpetrol"la üzbəüz dağın ətəyində 4 hektar özəl sahədə yerləşən ferma satılır. İşərisində çoban evi, ofisi, yem dəyirmanı, istirahət guşəsi, daimi işığı və suyu var. Əlavə olaraq 5 hektar özəl torpaq sahəsi və bundan başqa müqavilə ilə 6 hektar biçin sahəsi və 126 hektar otlaq sahəsi var. Bunların hamısı birlikdə 450 min manat.
Əlaqə nömrəsi:
(055) 206-14-61,
(070) 335-90-15,
(050) 371-01-60






## Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gözləmədən - lateks hələ qoyulması.*
SƏLİMOV FƏRMAN
Tel: (055) 776-70-34

YENİ MÜSAVAT

Son səhifə

N 156 (6184) 21 iyul 2015



## Facebooka görə adını dəyişir

İngiltərədə yaşayan Jemma Rogers adlı oğlan 2008-ci ildə facebook sosial şəbəkəsində "Jemmaroid Von Laalaa" adı ilə hesab açıb. Tanımadığı insanlarla rahat əlaqə saxlamaq üçün yalan adla hesab açan Rogersin ötən həftə sosial şəbəkə ilə bağlı başı bəlaya girib. Şəbəkə rəhbərliyi adın mənasına görə bu hesabın yalançı olduğuna qərar verib. Bundan sonra facebook rəhbərliyi ondan adın doğru olduğunu sübut etməsini istəyib. 30 yaşlı Rogers facebooka saxta şəkilli bir bank kartı göndərib. Facebook kartın saxta olduğunu anladığı üçün hesabı bağlayıb. Bundan sonra J.Rogers facebooka kimliyi və saxta hesab açmasının səbəbi haqda mesaj yazıb. Lakin şəbəkə rəhbərliyi bu addımı ciddi hesab etməyib. İkinci dəfə "Ms. Jemmaroid Von Laalaa" adlı hesab açıb. Lakin o hesab da silinib. Mətbuata açıqlama verən Jema Rogers "bilirəm, saxta hesab açmaq ağıllı fikir deyil. Lakin facebook da doğru etmədi. Bir çox insan saxta hesab açır. Mənim bu şəkildə cəzalandırılmağım yanlışdır. 7 il ərzində qazandığım dostlarımı, şəkillərimi itirdim. Hesabımı geri qazanmaq üçün adımı dəyişdirəcəyəm" deyib.

# Vişnənin bilmədiyimiz xeyirləri

Bir çox dərdə dəva olan vişnə və onun sapı bəzi özəlliyi ilə böyrəklərimizin dostu olub bədənimizi zərərli maddələrdən qoruyur. Təkcə sağlamlığımız üçün deyil, həmçinin də insanı arıqladır. O, bədəndəki artıq suyun atılması ilə zəifləməyə də kömək edir. Vişnə bədəndəki duz və daşların atılmasına, revmatizmdə və damar sərtliyinin müalicəsində kömək olur. Ayrıca böyrəkdəki daş və qumların təmizlənməsinə də kömək olur. İçərisindəki antioksidant sayəsində ürək və damar xəstəliklərinin riskini azaldır. Eyni zamanda tərkibindəki melatonin sayəsində yuxunu, yaddaş itkisini və yaşlanmağı gecikdirməyə kömək edir. Yenə tərkibdəki beta karotin xərçəng xəstəliyinin yaranmasının qarşısını alır.



Vişnənin ürəyə faydaları barədə də bir çox faktlar ortaya çıxıb. Həmçinin pəhriz saxlayanlara məsləhət görülür. Vişnə qarındakı yağları əridir, şəkər xəstələri üçün də xeyirli sayılır.

# Liderlər nə qədər yatır?

Beynəlxalq Yuxu Dərnəyinin apardığı araşdırmalara görə, insanların gün ərzində 7-9 saat yatmaları normaldır. Lakin bir çox liderlər və dünyanın məşhur mucidləri buna riayət etmir. Dünya liderlərinin yuxu rejimi belədir:

Marqaret Teççer - 4 saat;
Silvio Berluskoni - 2-4 saat;
Bill Qeyts - 7 saat;
Hef Bezos - 8 saat;
Tomas Edisson - 4-5 saat;
Aleksandr Qraham Bell - 4-6 saat;
Donalt Trump - 4-5 saat;
Nikola Tesla - 2 saat;
Əhməd Davudoğlu - 4-5 saat;
Barak Obama - 6 saat;
Rəcəb Tayyib Ərdoğan - 6 saat.





## Həbsxanada gözəllik salonu

Gürcüstanın üç həbsxanasında gözəllik salonu açılıb. Salonlarda stilist kurslarını uğurla başa çatdırmış dustaqlar çalışırlar. Gürcüstan hökumətindən verilən məlumata görə, konkret ixtisas üzrə biliklərə yiyələnmiş bu dustaqlara həm də xüsusi mükafat veriləcək. Hazırda stilist peşəsi üzrə 33 nəfər xüsusi sertifikat əldə edib. Hökumətdən bildirilib ki, iş yerlərinin açılması cinayətin qarşısının alınması üzrə səmərəli vasitədir. Həbsxanada iş dustaqlar üçün maddi və mənəvi xilas yoludur.

"Hazırda Gürcüstan həbsxanalarında geyim və makaron istehsal edən müəssisələr işləyir. Yaxın zamanlarda çörək sexinin və ayaqqabı fabrikinin açılması da nəzərdə tutulur", - deyə qurumdan bildiriblər.

Dustaq qadınlar balıq emal etməyə gedirlər. Postsovet məkanında həbsxanalarda hər cür emal fabrikləri var.




QOÇ - Çoxsaylı görüşlərdə iştirakınızdan xəbər verən Göy qübbəsi maraqlı təkliflər alacağınızı da bəyan edir. Yeni işlərə başlamaq və ya bu barədə fikir mübadiləsi aparmaq üçün yaxşı vaxtdır.

BUĞA - Planetlərin yerdəyişməsi yaxınlaşdığından hər hansı mübahisə və ya münaqişəyə həvəs göstərməyiniz zərərinizə olar. Belə bir mənzərə yaransa, müəyyən ünvanlara qonaq getməyə dəyər.

ƏKİZLƏR - Sevinməyə dəyər. Çünki astroloji göstəricilər əksər bürclərlə müqayisədə yalnız sizin qazanmaq ehtimalınız olduğunu təyin edib. Deməli, əzmkarlığınızı artırmaqla buna nail olmalısınız.

XƏRÇƏNG - Sizə borclu olanlardan, eləcə də məvacib prosesində gecikən pullarınızı əldə etməyə çalışın. Əks təqdirdə, nöbəti bir həftə ərzində buna nail olmayacaqsınız.

ŞİR - Kifayət qədər məhsuldar bir gündür. Emosionallığınızı soyuqqanlılıqla əvəz edə bilsəniz, bir çox sahələrdə uğurlarınız olacaq. Şəxsi işlərinizdə əsaslı dönüş də başlaya bilər.

QIZ - Mənfi enerjili Ay bürcünüzdə olduğu üçün sağlamlığınıza fikir verməlisiniz. Ağır fiziki işlərdən ehtiyatlanmalısınız. Qərar qəbul edərkən müsahib rəyini mütləq nəzərə alın.

TƏRƏZİ - Yeni əlaqələrə başlamaq, fəaliyyət zəminində dönüş yaratmaq üçün sərfəli tarixdir. Bu istiqamətdə xərcə düşməkdən qorxmayın. Çünki müdafiənizdə duran ulduzlar sizi qoruyacaq.

ƏQRƏB - İxtiyarınızda olan bu süst gündə həmkarlarınızla münasibətdə təmkinli olun. Bunu bacarsanız, sonrakı müddətdə problemlə rastlaşmayacaqsınız. Mühüm sirlərinizi hər kəsə deməyin.

OXATAN - Son vaxtlar işlə bağlı passivliyə mübtəla olmağınız sizi yormaqdadır. Bu gün də belə bir şey gözlənildiyindən vaxtınızı əyləncələrə həsr edin. Sevgidə kobudluğa yol verməyin.

OĞLAQ - Əsas vaxtınızı münasibətlər zəminində qurun. Dostluq-yoldaşlıq istiqamətində, ələlxüsus da sevgi məsələlərində sevindirici anlarınız olacaq. Amma uzaq səfərə çıxmaq fikrindən daşının.

SUTÖKƏN - Qarşınızda perspektivli və yorucu işlər durur. Ulduzlara inansaq, ötən günlərdə yol verdiyiniz hansısa səhvi düzəltmək imkanı da qazanacaqsınız. Etibarsız adamlardan uzaq olun.

BALIQLAR - Olduqca riskli gündür. Bu səbəbdən istənilən addımı atmazdan qabaq mütləq mövcud reallığı nəzərə almalısınız. Təcrübəli adamlardan yararlanın. Yerli-yersiz özünüzü tərifləməyin.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Obamanın "böcək" qorxusu



Gələn il Amerikada keçiriləcək prezident seçkilərindən əvvəl Nyu-Yorka gedən Barak Obama 86 illik ənənəni pozub. Obama ailəsi ilə bilikdə qalacaqları otaqlara dinləmə cihazı yerləşdirilməsindən qorxduğu üçün başqa yerlərdə qalmağa qərar verib. Amerika prezidentləri 1929-cu ildən bəri Nyu-Yorkda keçirilən özəl günlərdə və iş görüşlərində Valdorf Astoriya hotelində qalırdılar. Lakin ötən il çinli iş adamları dinlənildiyi üçün Obama ailəsi birlikdə həmin hotellərdə qalmaqdan imtina edib. 17 yaşlı qızı Malia və 14 yaşlı qızı Saşa ilə Nyu-Yorka gedən B.Obama dinlənilməkdən çəkindiyi üçün bu addımı atdığını deyib.

Səhifəni hazırladı: ŞAHNAZ

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

Lisenziya N: B 114
SAYI: 5.300